DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 08 (382) / AVQUST 2023-CÜ İL




Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb. Bu gün səhər uşaqlarla bir neçə tədbirdə iştirak edirdim. Onlardan soruşurdum, həm Zabuxda, həm Laçın şəhərində, siz Bakıdan, Sumqayıtdan, digər yerlərdən gəlmisiniz, darıxmırsınız? Xeyr dedilər. Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq. Danışıqlar yolu ilə bunu etmək mümkün deyildi və müharibə yeganə çıxış yolu idi. Biz ədalətli müharibə aparmışıq, biz öz torpağımızda vuruşmuşuq, savaşmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik. Bu məsələ ilə bağlı hələ işğal dövründə dəfələrlə mən Azərbaycan dövlətinin mövqeyini ifadə edərək deyirdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarına qayıdacaqdır və belə də oldu.

...Bu gün isə biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik. Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq. Çünki biz qurub-yaradan xalqıq. Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir və eyni zamanda, onu göstərir ki, bu torpaqların sahibləri bizik. Ermənistan 30 il ərzində torpaqlarımızı işğal altında saxlayıb. Azad edilmiş ərazilərə hər gələn insan öz gözləri ilə erməni vəhşiliyinin təzahürlərini görür. Əgər bu torpaq onlara məxsus idisə, nə üçün şəhərlər, kəndlər viran qoyulub, nə üçün bütün tarixi abidələr dağıdılıb? Onlar da bilirdilər ki, gec-tez biz gələcəyik, biz də bilirdik ki, gec-tez biz gələcəyik. İşğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərdə mən deyirdim ki, gün gələcək biz öz bayrağımızı Laçında, Şuşada, o vaxt işğal olunan digər şəhərlərdə qaldıracağıq.

...Bir məsələyə də toxunmaq istərdim. Bildiyiniz kimi, bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Bir daha iradə, cəsarət, öz gücünə əminlik nümayiş etdirərək biz bunu etdik. Nə qədər bizə təzyiqlər oldu, nə qədər hədə-qorxular oldu. Bu gün də davam edir, bu gün də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz. 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik, biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq.

**Prezident İlham Əliyev**
"Laçın Şəhəri Günü" bayram tədbirindəki nitqindən
Laçın, 26 avqust 2023-cü il

# AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİ VƏ XANIMLARI SAATLI VƏ YUXARI GÖVHƏR AĞA MƏSCİDLƏRİNDƏ OLUBLAR

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Şuşa şəhərinə səfər çərçivəsində Saatlı və Yuxarı Gövhər Ağa məscidləri ilə də tanış olublar.

Özbəkistan Prezidentinə və xanımına məlumat verilib ki, məscid 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəllər Molla Pənah Vaqifin dərs dediyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub.

Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi, Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb və bu ilin may ayında məscidin açılışı olub.

Yuxarı Gövhər Ağa məscidi ilə də tanışlıq zamanı qonaqlara məlumat verilib ki, sözügedən dini məbəd ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Şuşa şəhəri işğal altında olduğu müddətdə bu məscid ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin sonlarından başlanan bərpa işlərindən sonra bu ilin mayında məscidin açılışı olub.



# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"

Avqustun 2-4-də Quba şəhərində "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda üçgünlük regional konfrans keçirilib.

Konfransın birinci günü Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədri Mübariz Qurbanlı, Quba Rayon İcra Hakimiyyətinin (RİH) başçısı vəzifəsini müvəqqəti icra edən Tariyel İbrahimov, rayonun idarə və təşkilatlarının rəhbər şəxslərinin iştirak etdiyi tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin Quba şəhərindəki abidəsi ziyarət edilib, xatirəsi ehtiramla anılıb.



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olan qəhrəman Vətən oğullarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Komitə sədri Mübariz Qurbanlı çıxış edərək dünyəvi dövlət modelinin möhkəmlənməsi, dini müxtəlifliyin və dinlərarası dialoqun qorunması, dövlət orqanları ilə dini qurumlar arasında əməkdaşlığın tənzimlənməsi, habelə dini təhlükəsizliyin təmin edilməsi kimi məsələlərə toxunub.




Bildirilib ki, Azərbaycanın dövlət-din münasibətləri modelini möhkəmləndirən amillər içərisində dini müxtəlifliyin və mütərəqqi dini dəyərlərin qorunması, dinlərarası dialoqun inkişafı mühüm yer tutur. Prezident İlham Əliyevin bu yöndəki siyasətinə uyğun olaraq DQİDK Azərbaycandakı dini konfessiyalarla sıx əməkdaşlıq edir, müxtəlif dini etiqad mənsubları arasında qarşılıqlı hörmət və birgəyaşayışın möhkəmlənməsi, eyni zamanda, dini xurafat, fanatizm, radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində dini maarifləndirmə işi aparır.

Mübariz Qurbanlı vurğulayıb ki, dini sahədə dövlət siyasətində fanatizmə və radikalizmə, onların bütün təzahürlərinə qarşı mübarizə mühüm yer tutur. Vicdan və dini etiqad azadlığının, dini təhlükəsizliyin təmin edilməsi və dövlət-din münasibətləri modelinin möhkəmlənməsi istiqamətində aparılan siyasətin uğurlu nəticəsidir ki, Azərbaycanda dini durum sabitdir.

Çıxışı zamanı son zamanlar Avropada özünü qabarıq şəkildə büruzə verən islamofobiya meyillərinə diqqət çəkən Komitə sədri Qurani-Kərimin yandırılması və təhqir edilməsinin yolverilməz hal olduğunu bildirib: "Bu gün dünyada sülh və əmin-amanlığı bərpa etmək, dinlərarası dialoqu inkişaf etdirmək üçün beynəlxalq təşkilatlar səylərini birləşdirməlidirlər. Azərbaycan bu sahədə üzərinə düşən missiyanı layiqincə yerinə yetirməyə çalışır".



Rayondakı sabit dini durum barədə məlumat verən Quba RİH başçısının səlahiyyətlərini müvəqqəti icra edən, başçının birinci müavini Tariyel İbrahimov bu sahədə maarifləndirmə işinin ardıcıl və məqsədyönlü şəkildə aparılmasının zəruriliyindən danışıb.

Yeni Azərbaycan Partiyası (YAP) Quba rayon təşkilatının sədr müavini Elxan Məhərrəmov, Quba RİH yanında İctimai Şuranın sədri Laçın Səfərəliyev, İnsan hüquqları üzrə müvəkkilin (ombudsman) Şimal regional mərkəzinin rəhbəri Bəhruz Əfəndiyev, Quba Rayon Ağsaqqallar Şurasının sədri İldırım Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Naib Səttarov çıxışlarında mütərəqqi dini dəyərlərin əhəmiyyətinin ictimai fikrə çatdırılmasının önəminə toxunub, milli-mənəvi dəyərlərimizə zidd yad ideologiyaların yayılmasına qarşı mübarizədə təkcə dövlət qurumlarının deyil, cəmiyyətin hər bir fərdinin öz barışmaz mövqeyini nümayiş etdirməsinin vacibliyini vurğulayıblar.

Tədbir çərçivəsində müzakirə olunan mövzu ilə bağlı videoçarxlar nümayiş etdirilib, konkret misallarla maarifləndirmə və təbliğat-təşviqat işinin gücləndirilməsinin əhəmiyyətinə diqqət çəkilib, bir sıra təkliflər səsləndirilib.

Konfransın ikinci günündə DQİDK-nın sədr müavini Sahib Nağıyev, Quba RİH başçısının səlahiyyətlərini müvəqqəti icra edən, başçının birinci müavini Tariyel İbrahimov rayonun hüquq-mühafizə orqanları, idarə və təşkilatların rəhbər şəxsləri iştirak ediblər.

Üçgünlük regional konfrans avqustun 3-də öz işini davam etdirib. Tədbiri giriş sözü ilə açan RİH başçısının səlahiyyətlərini müvəqqəti icra edən, başçının birinci müavini Tariyel İbrahimov çıxışında bildirib ki, xalqımızın tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdan Heydər Əliyevin uzaqgörən siyasi addımları nəticəsində dövlət-din münasibətlərində və milli-mənəvi dəyərlərə qayıdış prosesində yeni bir mərhələ başlanıb. Ölkəmizdə dini etiqad və vicdan azadlığı təmin olunub, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Sahib Nağıyev bildirib ki, Azərbaycanda dini ekstremizmin qarşısının alınması, vətəndaşlarımızın xarici təsirlərdən qorunması, ölkədəki dini durumun sabit saxlanılması, əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm addımlar atılıb. Belə ki, qanunvericilik bazasında boşluqların aradan qaldırılması, beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, həm dövlətin, həm də dini qurumların hüquq və öhdəliklərinin dəqiq müəyyən olunması, eləcə də insanpərvərlik prinsipləri ilə ziddiyyət təşkil edən zərərli dini cərəyanların fəaliyyətinin məhdudlaşdırılması məqsədilə qanunvericilik təkmilləşdirilib. Sədr müavini vurğulayıb ki, bu istiqamətdə dini qurumların statusunu, hüquq və vəzifələrini müəyyənləşdirən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişiliklər edilib, dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edən "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub. S. Nağıyev onu da diqqətə çatdırıb ki, dövlətçiliyin qorunmasında və onun daha da möhkəmləndirilməsində, hər cür ekstremist fəaliyyətin

davamı səh. 3

# “MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR”

əvvəli səh. 2 qarşısının alınmasında, yaxud qabaqlayıcı tədbirlərin işlənib hazırlanmasında dövlət-din münasibətlərinin qanun çərçivəsində qurulması müstəsna əhəmiyyətə malikdir.

Baş Prokurorluğun nümayəndəsi Asim Yusifov və Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev isə dini radikalizm və onun fəsadlarından, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı pozuculuq fəaliyyətlərinin qarşısının alınmasına yönələn tədbirlərdən danışıblar.






Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazıları Naib Səttarov və Cavanşir Əfəndiyev dövlətin dinə və dindarlara qayğısından bəhs edib, bu cür konfransların keçirilməsinin zəruriliyini diqqətə çatdırıblar.

Regional konfransın üçüncü günündə DQİDK və RİH-in rəsmi şəxsləri, şəhərdə fəaliyyət göstərən qurumların rəhbərləri, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə bildirib ki, qloballaşma prosesinin sürətləndiyi, xarici təsirlərin artdığı mürəkkəb beynəlxalq şəraitdə dinlərarası qarşılıqlı anlaşma, hörmət prinsiplərinin qorunub saxlanması və dindən şəxsi məqsədlər naminə istifadənin qarşısının alınması üçün dini maarifləndirmənin aparılması xüsusi əhəmiyyət kəsb edir. C.Əlifzadə konfransın mövzusuna diqqət çəkərək qeyd edib ki, müasir dövrün çağırışlarına müvafiq olaraq Dövlət Komitəsi tərəfindən dini maarifçilik işinin təşkili, radikalizmlə mübarizə, ölkədə dini durumun öyrənilməsi, dini duruma kənar təsirlərin aradan qaldırılması, dini icmalarla digər dövlət qurumları arasında səmərəli münasibətlərin qurulması, əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın zəngin tolerantlıq ənənələrinin ölkə daxilində, beynəlxalq aləmdə təbliğ edilməsi istiqamətində hədəflər müəyyən edilib və bu istiqamətdə mühüm addımlar atılmaqdadır.

Quba RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Anar Məmmədov deyib ki, Azərbaycanda dini etiqad azadlığının təmin olunması ilə bağlı dövlət siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ölkəyə rəhbərliyi dövründə bu sahəyə aid qanunvericilik bazası gücləndirilərək tolerantlıq ənənələri, etnik qrupların və dini konfessiyaların hüquqlarının qorunması, dinlərarası münasibətlərin tənzimlənməsi istiqamətində müntəzəm tədbirlər həyata keçirilib. Hazırda bu siyasəti Prezident İlham Əliyev böyük uğurla davam etdirir.

Quba rayon Ağsaqqallar şurasının üzvü Eynulla Nurullayev, YAP-ın Quba rayon təşkilatının sədr müavini Elxan Məhərrəmov, Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, Quba-Xaçmaz Regional Təhsil idarəsinin Quba rayon sektorunun müdiri Pərviz Nurməmmədov çıxışlarında kompleks şəkildə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıblar.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# KOMİTƏ ƏMƏKDAŞLARINA MEDALLAR TƏQDİM OLUNUB



Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyun 2023-cü il tarixli müvafiq Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səmərəli fəaliyyətlərinə görə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmiş əməkdaşları - Cavadov Amil Rafiq oğlu, Verdiyev Şahmar Niyazi oğluna vəsiqə və medallar təqdim olunub.

Komitə sədri Mübariz Qurbanlı Prezident İlham Əliyev tərəfindən dövlət qulluqçularının fəaliyyətinə xüsusi diqqət və qayğı göstərildiyini, dövlət qulluğunda səmərəli fəaliyyəti ilə seçilən əməkdaşların daim dəyərləndirildiyini diqqətə çatdırıb. M.Qurbanlı dövlət qulluğunun məsuliyyətindən bəhs edərək əməkdaşları bir daha təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Təltif olunmuş Komitə əməkdaşları çıxış edərək fəaliyyətlərinin yüksək qiymətləndirilməsinə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.



# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ AĞSTAFADA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı avqustun 15-də Ağstafa, Qazax, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl DQİDK sədri Mübariz Qurbanlı və Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbula gələn vətəndaşlar dini icmaların kitablarla təmin edilməsi, dini təhsil, dini maarifləndirmə işinin genişləndirilməsi, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.





Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# BİRİNCİ YARIMİLİN YEKUNLARINA HƏSR OLUNMUŞ KOLLEGİYA İCLASI KEÇİRİLİB



Avqustun 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Kollegiyasının bu ilin altı ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

İclası giriş sözü ilə açan Komitə sədri Mübariz Qurbanlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirəyə diqqət çəkərək dayanıqlı inkişafın təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə əldə edilən uğurlardan, tarixi-dini abidələrimizin təmiri və yenilərinin tikilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Prezident İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyasını uğurla həyata keçirməsi nəticəsində Azərbaycan güclü, müasir, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilib.

Komitə sədri, eyni zamanda ötən müddətdə "Heydər Əliyev İli" ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və tabeliyində olan qurumlar tərəfindən 2023-cü ilin Tədbirlər Planında nəzərdə tutulmuş qaydada çoxsaylı tədbirlərin keçirildiyini, Ulu Öndərin zəngin irsinin əhatəli təbliği istiqamətində bir sıra layihələrin reallaşdırıldığını bildirib.

Komitə sədri qeyd edib ki, ötən müddət ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi öz fəaliyyətini dövlət-din münasibətləri ilə bağlı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətə müvafiq olaraq qurub və Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulmuş məqsədlərə nail olmaq istiqamətində fəaliyyət göstərib. Dövlət Komitəsi dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşdirilməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği və təşviqi, cəmiyyətdə milli-mənəvi həmrəyliyin güclənməsi və qarşılıqlı anlaşma münasibətlərinin ahəngdar inkişafı istiqamətində işini davam etdirib.

Sədr müavini Gündüz İsmayılov Dövlət Komitəsinin 2023-cü ilin I yarısında fəaliyyəti barədə hesabatla çıxış edərək, Komitənin bu dövrdə öz fəaliyyətini dövlət-din münasibətləri ilə bağlı müəyyənləşdirilmiş dövlət siyasətinə müvafiq şəkildə qurduğu və bu istiqamətdə qarşıya qoyulmuş məqsədlərə nail olmağa çalışdığını bildirib. Qeyd edib ki, Komitə tərəfindən 25 oktyabr 2022-ci ildə İslam dininə aid ibadət yerləri (məscidlər) üzrə növbəti dəfə elan edilmiş müsahibənin imtahan mərhələsi 13-24 fevral 2023-cü ildə keçirilib. 18-i qadın olmaqla, 66 nəfər imtahanlardan uğurla keçib ki, onlardan 17-si qadın olmaqla 56 nəfəri məscidlərdə müxtəlif vəzifələrə təyin olunub. G.İsmayılov vurğulayıb ki, hazırda 2023-ci ilin may ayında elan edilmiş müsahibənin imtahan mərhələsinə hazırlıq işləri davam etdirilir. Bu dəfə müsahibəyə çıxarılmış 19 vakant vəzifə üçün 293 namizəd sənəd verib. Onlardan 178 nəfəri ali dini, 115-i isə orta ixtisas təhsilli şəxslərdir.

Sədr müavini bildirib ki, Komitə hesabat dövründə dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində fəaliyyətini davam etdirib. Həmçinin ötən müddət ərzində hüquq mühafizə orqanları ilə birgə qanunsuz dini fəaliyyətə, eləcə də ixtisaslaşmış satış məntəqələrindən kənarda dini ədəbiyyat nümunələrinin satışının həyata keçirilməsinə qarşı profilaktik və inzibati tədbirlər görülüb. Bu baxımdan 2023-cü ilin yanvar-iyun aylarında Komitənin dinşünaslıq ekspertizasına daxil olmuş müraciətlər əsasında 2127 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən kitabların ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Ölkədə nəşr olunmaq məqsədilə dinşünaslıq ekspertizasına təqdim edilmiş 134 adda dini ədəbiyyata baxılıb. Ümumilikdə 2023-ci ilin yanvar-iyun ayları ərzində Komitə tərəfindən ölkə vətəndaşlarının cəlb olunduğu 520-dən artıq dini maarifləndirmə xarakterli tədbir təşkil edilib ki, bu tədbirlərin keçirilməsində yerli icra hakimiyyəti orqanları, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, müxtəlif dini konfessiyalara mənsub icmalar, QHT-lər, Heydər Əliyev mərkəzləri, Mədəniyyət, Gənclər və İdman Nazirliklərinin yerli strukturları, Ombudsman Aparatının regional mərkəzləri, Yeni Azərbaycan Partiyası, Silahlı Qüvvələr, hüquq mühafizə orqanları və s. qurumlarla əməkdaşlıq edilib.

G. İsmayılov hesabat dövründə Komitədə 2 dini icmanın dövlət qeydiyyatından keçdiyini, bununla da, rəsmi qeydiyyata alınmış dini qurumların sayının 1002-ə çatdığını diqqətə çatdırıb.

Daha sonra Dini qurumlarla iş üzrə şöbənin müdiri Cahandar Əlifzadə məruzə ilə çıxış edərək cari ilin 27-28 iyul tarixlərində Tasua və Aşura mərasimlərinin Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının qəbul etdiyi müraciətə uyğun olaraq keçirildiyini, aparılan monitorinqlərə əsasən xoşagəlməz halların müşahidə edilmədiyini qeyd edib. Komitə rəsmisi buna mütəmadi olaraq maarifləndirmə tədbirlərinin aparılması və qanunvericiliyin qorunması istiqamətində hüquq-mühafizə orqanlarının apardığı profilaktik tədbirlər nəticəsində nail olunduğunu bildirib.

Azərbaycan İlahiyyat İnstitutunda 2023-2024-cü tədris ilinə hazırlıq barədə məruzə ilə çıxış edən rektor Aqil Şirinov ali təhsil müəssisəsinə yüksək intellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə Sumqayıt şəhərində, Qaradağ, Saatlı, Neftçala, Astara, Masallı, Qusar rayonlarında yerləşən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərinin təşkil edildiyini qeyd edib.

Rektor diqqətə çatdırıb ki, hesabat dövründə İnstitut müəllim, tələbə və məzunları "İlahiyyat TV" yutub kanalının "Müasir dünya və din", "Vəhyin işığında", "İslam deyir ki..." verilişlərinin, həmçinin "Hikmət çeşməsi", "Ramazan hikmətləri" rubrikalarının qonaqları olublar. Ramazan ayı boyunca efirə gedən "Ramazan hikmətləri" rubrikasında İnstitut müəllimlərinin 15-dən çox çıxışı baş tutub. Qurani-Kərimin ayə və surələri təfsir olunan "Vəyhin işığında", eləcə də "Müasir dünya və din" verilişlərinin 10-dan çox buraxılışı efirə gedib. Eyni zamanda, Prezident cənab İlham Əliyevin Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan İlahiyyat İnstitutu "Heydər Əliyev və dini tolerantlıq" mövzusunda respublika elmi konfransı, həmçinin, "Türk Ağsaqqalları Arasında Əlaqələrin İnkişafı" İctimai Birliyi ilə birgə "Xalqın yaddaşında yaşayan düha: Ulu Öndər Heydər Əliyev xatirələrdə" mövzusunda konfrans təşkil edib.

İnstitutda təhsil alan tələbələr arasında Türkiyə və Gürcüstan vətəndaşlarının da olduğuna diqqət çəkən A. Şirinov hesabat dövründə İnstitutla Rusiya Federasiyası Dağıstan Respublikasının Dərbənd şəhərində yerləşən Şeyx Abdulla Əfəndi adına İslam Universiteti arasında əməkdaşlıq müqaviləsinin imzalandığını vurğulayıb.

A.Şirinov bildirib ki, III ixtisas qrupu üzrə bakalavr pilləsinin "İslamşünaslıq" ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün 1-3 avqust arası keçirilən müsahibə mərhələsi başa çatıb. Dövlət İmtahan Mərkəzi tərəfindən yaradılan Dini Psixoloji Komissiya üzrə qeydiyyatdan keçən 113 nəfərdən 52-si məqbul qiymət alıb. Rektor vurğulayıb ki, müsahibədən məqbul qiymət almış abituriyentlər seçim zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasını da seçə biləcəklər. Həmçinin rektor növbəti tədris ilinə hazırlıq prosesi, qəbul nəticələri barədə məlumat verib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Hatəm Gülməmmədov təmsil etdiyi qurumun yanvar-iyun aylarında dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, mənəvi dəyərlərin qorunması və təbliği, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsindəki fəaliyyəti, habelə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyinin təmin edilməsi istiqamətlərində fəaliyyətinə toxunub. Bildirib ki, rəsmi olaraq məscidlərə təyin edilmiş din xadimlərinə (imam, imam müavini və mütəvəlli) Fond tərəfindən maddi dəstək göstərilib, bununla yanaşı Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan qeyri-islam dini icmalarına ayrılmış vəsait hesabına 26 icmaya yardım edilib. 2023-cü ilin yanvar-iyun ayları ərzində Fond hərbi vətənpərvərlik sahəsində də maarifləndirici tədbirlərin keçirilməsinə xüsusi əhəmiyyət verib, xüsusilə şəhid ailələri ilə bağlı çoxsaylı tədbirlər, Gəncə və Lənkəran şəhərlərindən olan şəhid ailələri üzvlərinin Şuşaya səfərləri təşkil olunub.

"Heydər Əliyev ili" çərçivəsində Fond tərəfindən bir sıra tədbirlərin həyata keçirildiyini vurğulayan H.Gülməmmədov 22-24 iyun tarixlərində Gəncə şəhərində gənclər üçün Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə "Ulu Öndər: Dəyərlərimizin xilaskarı" adlı üçgünlük seminarın keçirildiyini bildirib. Eyni zamanda diqqətə çatdırıb ki, Mənəvi Dəyərlərin Təbliği Fondu Azərbaycan Nəşriyyatları Assosiasiyası, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və yerli icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə ölkənin müxtəlif şəhər və rayonlarında keçirilən kitab sərgi-festivallarında iştirak edib. Belə ki, 10-12 mart tarixlərində Lənkəran şəhərində, 2 iyun tarixində isə Xırdalan şəhərində keçirilən sərgilərdə Fondun sifarişi əsasında nəşr edilən kitablar nümayiş etdirilərək iştirakçılara pulsuz paylanılıb.

Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin müdiri Anar Kazımov Bakı şəhərində mövcud dini durum və görülmüş işlər barədə məlumat verərək bildirib ki, dini durumun öyrənilməsi və qiymətləndirilməsi məqsədilə məscidlərdə ümumi monitorinqlər keçirilib. A. Kazımov Bakı şəhəri üzrə şöbənin digər qurumlarla birgə dini radikalizm və ekstremizm meyillərinin qarşısının alınması, o cümlədən dini durumun sabit saxlanılması məqsədilə gördüyü işlərdən danışıb.

Sumqayıt bölgəsində mövcud dini durum və görülmüş işlər barədə məlumat verən Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Yalçın Abdullayev bildirib ki, şöbənin səlahiyyət sahəsinə daxil olan Sumqayıt şəhəri, Abşeron, Xızı, Qubadlı və Zəngilan rayonlarındakı dini durum hesabat dövrü ərzində daima diqqət mərkəzində saxlanılıb. Şöbə bölgədə dini durumu dərindən öyrənmək, prosesləri izləmək, vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək, maarifləndirmə işi aparmaq, daxil olan müraciətlərə baxmaq, eləcə də, lazımi araşdırmalar aparmaq istiqamətində müvafiq tədbirlər həyata keçirib.

Yekunda Aparat rəhbəri Amil Cavadov tərəfindən Kollegiyanın qərar layihəsi səsləndirilib və müzakirələrdən sonra qəbul edilib.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyun 2023-cü il tarixli müvafiq Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səmərəli fəaliyyətlərinə görə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmiş əməkdaşlarına vəsiqə və medallar təqdim olunub. Komitə sədri dövlət qulluğunun məsuliyyətindən bəhs edərək əməkdaşları bir daha təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb. Təltif olunmuş Komitə əməkdaşları çıxış edərək fəaliyyətlərinin yüksək qiymətləndirilməsinə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# BAKIDA “ŞİMALİ VƏ ŞƏRQİ QAFQAZ YƏHUDİLƏRİNİN İRSİ VƏ MƏDƏNİYYƏTİ” MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRİLİB







Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə Dağ Yəhudilərinin Beynəlxalq Xeyriyyə Fondu "STMEGI" və İsraildəki Bar-İlan Universitetinin nəzdində Dahan Mərkəzinin (Dahan Centre) birgə layihəsi olan "Şimali və Şərqi Qafqaz yəhudilərinin irsi və mədəniyyəti" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Bar-İlan Universitetinin nəzdində Dahan Mərkəzinin direktoru Şimon Ohayon bildirib ki, Azərbaycan Dillər Universiteti ilə Bar-İlan Universiteti arasında əməkdaşlıq əlaqələri qurulacaq. Bu da universitetlər arasındakı münasibətləri yaxşılaşdıracaq. O, Dağ, Avropa və Gürcüstan yəhudiləri haqqında məlumat verərək deyib ki, bu konfrans vasitəsilə akademik və mədəni əməkdaşlığın əsası qoyulur. Bunun təzahürlərini gələcəkdə görəcəyik.

Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla qeyd edib ki, bugünkü konfrans elmi cəhətlərinə görə vacib əhəmiyyətə malikdir. Bu gün Azərbaycan və İsrail münasibətləri üçün xüsusi bir gündür. Çünki konfrans elmi, mədəni və siyasi mahiyyətinə görə əhəmiyyətlidir. Vurğulayıb ki, ölkəmizdə tarix boyu yəhudilər yaşayıblar. Bu səbəbdən də iki ölkənin tarixində, mədəniyyətində oxşarlıqlar var.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı







direktoru Rəvan Həsənov deyib ki, Azərbaycanda yəhudi icması min illər boyu yaşayıb. Biz ölkəmizdə yəhudi irsini və mədəniyyətini qoruyuruq. Azərbaycanda yəhudi icmasına qarşı heç bir ayrı-seçkiliyin olmadığını söyləyən icraçı direktor bildirib ki, bu ilin noyabrın ayında ilk dəfə olaraq Hahamların konfransı keçiriləcək.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov diqqətə çatdırıb ki, yəhudilərin sürgünlərdən sonra məskunlaşdığı yerlər arasında Azərbaycan da var. Bu da ölkəmizin bütün millətlər, dinlərin nümayəndələri üçün təhlükəsiz ölkə olmasını göstərir. Diqqətə çatdırıb ki, Azərbaycan İlahiyyat İnstitutunda yəhudi dini ilə bağlı dərslər də keçirilir. Yəhudi icması ilə də yaxın münasibətlər var. Biz bunu akademik səviyyədə də inkişaf etdirmək istəyirik.

Azərbaycan, İsrail, Rusiya, ABŞ, Fransa və digər ölkələrdən 60-dan çox tədqiqatçı-alim iştirak etdiyi beynəlxalq konfransın 13 panel iclasında - "Adət və ənənə-



lər". "Azərbaycanda və yəhudi icmasında multikulturalizm", "Milli və etnik kimlik", "Sionist fəaliyyət və Qafqazdan immiqrasiya", "İsrail-Azərbaycan münasibətləri", "Bakıdakı yəhudi icması: Tarix və cəmiyyət", "Dil və kimlik", "Qafqaz yəhudiləri müasir dövrdə", "Dağ Yəhudiləri İkinci Dünya müharibəsi dövründə", "Mədəniyyət və incəsənət", "Yəhudilər Azərbaycanda", "Qafqaz yəhudilərinin tədqiqi mənbələri" mövzularında geniş müzakirələr aparılıb.

***

Avqustun 30-da “Şimali və Şərqi Qafqaz yəhudilərinin irsi və mədəniyyəti” mövzusunda keçirilən beynəlxalq elmi konfransa həsr olunmuş ziyafət təşkil edilib.

Ziyarətdə çıxış edən İsrailin ölkəmizdəki səfiri Corc Dik Azərbaycanda və İsraildə hökm sürən dini müxtəliflikdən söz açıb: "Bu, iki ölkənin oxşar cəhətlərindəndir. Qeyd edə bilərəm ki, dünyada ən böyük yəhudi icmalarından biri də Azərbaycanda yerləşir. Onlar Azərbaycanda tarix boyu sülh və əmin-amanlıq şəraitində yaşayıblar”.

Səfir qeyd edib ki, dini cəhətdən Azərbaycanda gördüyüm rahatlığı Parisdə görə bilmərəm. "Son illər Azərbaycan ilə İsrail geniş əməkdaşlıq edir. Bu, geosiyasi baxımdan çox əhəmiyyətlidir", - deyə Corc Dik əlavə edib.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla bildirib ki, bu gün Azərbaycanda elm bayramı hökm sürür: "Azərbaycan öz müstəqilliyini və suverenliyini qoruyur. Təəssüf ki, bu yolda itkilərimiz də olub. Onlar arasında yəhudilər də var. Yəhudi əsilli tank komandiri, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovu qeyd edə bilərik".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, bu gün keçirilən "Şimali və Şərqi Qafqaz yəhudilərinin irsi və mədəniyyəti" mövzusunda beynəlxalq elmi konfrans çox əhəmiyyətli idi. Çünki Qafqazda yəhudi irsinin öyrənilməsi vacib məsələdir: "Azərbaycanda bütün dini konfessiyalar bərabər şəkildə fəaliyyət göstərir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 38 qeyri-müsəlman dini icması rəsmi olaraq dövlət qeydiyyatından keçib, onlardan 8-i yəhudilərə aiddir".

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov ölkəmizdə olan multikultural mühitdən, Azərbaycan ilə İsrail arasında olan əməkdaşlıq əlaqələrindən söz açıb.

Ziyafətdə digər çıxış edən qonaqlar da Azərbaycan-İsrail münasibətlərin tarixi barədə fikirlərini bölüşüblər. Azərbaycanda tarix boyu bütün dinlərin nümayəndələrinin harmoniya və qardaşlıq mühitində yaşadığı, dövlətin bu sahəyə xüsusi diqqət yetirdiyi vurğulanıb. Qeyd olunub ki, İsrail-Azərbaycan münasibətləri qarşılıqlı hörmət və etimad üzərində qurulub.

# MEKSİKADA OLMEKLƏRİN QƏDİM MƏRASİM MƏRKƏZİ AŞKAR EDİLİB

Arxeoloqlar Meksikanın Puebla ştatında yerləşən Xuan N.Mendez bələdiyyəsi ərazisində qazıntı işləri aparan zaman olmeklərə məxsus qədim mərasim mərkəzi və mümkün piramidanın dəlillərini aşkar ediblər. Bu barədə “Heritage daily” onlayn nəşri məlumat yayıb.

Olmeklər məlum olan ən erkən Mesoamerikan sivilizasiyasıdır (həmçinin Mesoamerikanın “ana mədəniyyəti” adlanır). “Olmek” nahuatl dilindən tərcümədə “rezin adamlar” deməkdir.

Olmek sivilizasiyası indiki Meksikanın Verakruz və Tabasko ştatları ərazisində Mesoamerikanın formalaşması zamanı (e.ə. 1800-900-cü illər) ortaya çıxıb. Olmek sivilizasiyasının ən məşhur cəhəti dəbilqəli nəhəng daş başlardır. Kolumbdan əvvəlki mətnlərdə onların mənası açıqlanmadığına görə, bu böyük abidələr illər ərzində bir çox fərziyyələrə səbəb olmuşdur.

Xuan N. Mendez bələdiyyəsində yağan güclü yağışlar top oyunları üçün istifadə edildiyi güman edilən düzbucaqlı məkanın və mümkün piramidanın kəşfinə səbəb olmuşdur. Meydançanın yaxınlığında tamaşaçılar üçün tribuna rolunu oynaya biləcək bir sıra dağılmış daşlar da var.

Arxeoloqlar torpaqdan və daşdan tikilmiş, hündürlüyü 5 metrə çatan kurqanlar da aşkar ediblər. Bu da buranın mühüm ayinlər üçün mərasim mərkəzi kimi əhəmiyyətindən xəbər verir.

Arxeoloqların fikrincə, bura bölgədəki ilk olmek yaşayış məntəqələrindən və onların mərasim yerlərindən biri ola biləcəyi üçün böyük tarixi əhəmiyyətə malikdir.

# SƏYAVUŞ HEYDƏROV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞINDA KEÇİRİLƏN KONFRANSDA İŞTİRAK EDİB

Səudiyyə Ərəbistanı Krallığının (SƏK) İslam Məsələləri, Çağırış və İrşad Nazirliyinin dəvəti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov 13-14 avqust 2023-cü il tarixlərində Məkkə şəhərində keçirilmiş Ünsiyyət və İnteqrasiya mövzusu üzrə Dünya Dini məsələlər, Fətvalar və Məşixət (Şeyxlik) idarələrinin 1-ci konfransında iştirak edib.

Dünyanın bir çox müsəlman ölkəsinin aidiyyəti qurumlarından çoxsaylı nümayəndələrin və dini liderlərin qatıldığı tədbirdə SƏK İslam Məsələləri, Çağırış və İrşad naziri Əbdüllətif bin Əbdüləziz Al əş-Şeyx, nazirin müavini Dr. Şeyx Avad bin Səbti əl-Anzi, Qazaxıstanın Baş müftisi Naurızbay Taqanulı, BƏƏ İslam Məsələləri və Vəqflər Baş İdarəsinin rəhbəri Dr. Məhəmməd Matar Salim əl-Kəabi, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hüseyn İbrahim Taha, Mavritaniya İslam Respublikasını Baş müftisi əş-Şeyx Əhməd əl-Mərabit əş-Şanqeyti açılış nitqi ilə çıxış ediblər.

İki gün davam edən və 7 iclasdan ibarət konfrans



Dini məsələlər, Fətvalar və Məşixət (Şeyxlik) idarələri arasında ünsiyyət və inteqrasiya əlaqələrinin gücləndirilməsi, İslam dininin ülvi ismarışlarının çatdırılması naminə İslam alimlərinin inteqrasiya və əməkdaşlığının təşviqi, mərkəzilik və mötədillik prinsiplərinin həyata keçirilməsi və tolerantlıq dəyərlərinin xalqlar arasında birgəyaşayışın təşviq edilməsinə yönəlik cəhdlərinin bəyan edilməsi, Qurani-Kərim və Peyğəmbər sünnəsinə bağlılıq, eləcə də müsəlmanlar arasında İslam birliyini gücləndirmək, radikal fikirlərlə mübarizədə cəmiyyətin ateizm və tənəzzüldən müdafiəsi səyləri ilə tanışlıq kimi məqsədləri hədəfləyib.

Tədbir çərçivəsində bir sıra görüş və ziyarətlər də baş tutub. Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov tərəfindən keçirilən görüşlərdə dünyada dini mühitdə cərəyan edən proseslər, tendensiyalar, o cümlədən qlobal təhlükəsizliyə yönəlmiş təhdidlər barədə fikir mübadiləsi aparılıb, həqiqi islami dəyərlərin təbliği və qorunmasının vacibliyi müzakirə olunub, habelə Azərbaycanın mövcud dövlət-din münasibətləri modeli, tolerantlıq, multikulturalizm siyasəti görüş iştirakçılarının diqqətinə çatdırılıb. Azərbaycanın birgəyaşayış ənənəsi yüksək dəyərləndirilib, bu strategiya və platformanın daha geniş müstəvidə təbliğinin zəruriliyi qeyd edilib.

Konfransın sonunda yekun bəyanat qəbul olunub.

# AZƏRBAYCANDA MULTİKULTURALİZM VƏ TOLERANT MÜHİTİ ƏKS ETDİRƏN FİLM ÇƏKİLİR

Azərbaycandakı multikulturalizm və tolerantlıq mühitini əks etdirən qısametrajlı filmin çəkilişlərinə başlanılıb.

Film Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanır.

Filmin çəkilişləri ilə əlaqədar ölkəmizdə fəaliyyət göstərən qeyri-müsəlman dini icmalarının üzvləri Qubaya səfər ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov məlumat verib ki, "Müasir çağırışlar: Dinlərarası birgəyaşayış" mövzusunda çəkilən film Azərbaycanı müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu millimədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanıtmaq məqsədi daşıyır. Film ingilis dilində dublyaj olunaraq, Avropa ölkələrində təqdim ediləcək.



Çəkilişlər Qubadakı Cümə məscidində və dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbədəki Giləki sinaqoqunda, Xaçmaz şəhərindəki "Müqəddəs möcüzəvi Nikolay" kilsəsində və başqa məkanlarda aparılacaq. 15-18 dəqiqəlik film sentyabr ayı ərzində təqdim ediləcək.

# AZƏRBAYCANDA MULTİKULTURALİZM VƏ TOLERANTLIQ GÜNDƏLİK HƏYAT TƏRZİNƏ ÇEVRİLİB

Azərbaycanda tarix boyu bütün dinlərin nümayəndələri harmoniya və qardaşlıq mühitində yaşayıblar. Dövlətin bu sahəyə xüsusi diqqəti var. Bu gün Azərbaycanda 37 qeyri-müsəlman dini icması rəsmi olaraq dövlət qeydiyyatından keçib. Ölkəmizdə müsəlmanlar, xristianlar, yəhudilər və digər dini icmaların nümayəndələri mehriban şəraitdə yaşayırlar.

Bu barədə avqustun 28-də Qubada müsəlman və qeyri-müsəlman dini icmalarının nümayəndələrinin iştirakı ilə keçirilən "Müasir çağırışlar: dinlərarası birgəyaşayış" mövzusunda dəyirmi masada bildirilib.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşıya qoyulan əsas məsələlərdən biri dövlət-din münasibətlərinin tənzimlənməsi olub. Bildirilib ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır.

Konfransda çıxış edən dini icma nümayəndələri birgəyaşayışla bağlı meyillərin gücləndirilməsi üçün ölkəmizdə zəruri tədbirlərin həyata keçirildiyindən, Azərbaycandakı mövcud dini-etnik dözümlülük, müxtəlif mədəniyyətlər arasındakı sivil dialoqun dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları tərəfindən təqdir olunmasından danışıblar.

Tədbirdən sonra dini icma nümayəndələri Qubadakı Cümə məscidini, dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbədəki Giləki sinaqoqunu və Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

# FRANSA MƏKTƏBLƏRİNDƏ MÜSƏLMAN GEYİMLƏRİNƏ İCAZƏ VERİLMƏYƏCƏK

Fransa hakimiyyəti məktəblərdə əbayələrin - bədəni tamamilə örtən və paltarın üstündən geyilən müsəlman qadın paltarlarının geyinilməsini qadağan etmək niyyətindədir.

TASS informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə ölkənin milli təhsil və gənclərlə iş üzrə naziri Qabriel Attal bildirib.

"Respublikada məktəb dünyəvilik kimi möhkəm prinsiplər üzərində qurulub. Dünyəvilik məktəb vasitəsilə özünü azad etmək azadlığıdır. Sinif otağına girəndə şagirdlərin dinini sadəcə onlara baxmaqla müəyyən edə bilməməlisən", - deyən nazir gələn həftə məktəb rəhbərləri ilə bu qadağanın necə həyata keçiriləcəyini müzakirə edəcəyini söyləyib.



Qeyd edək ki, 2004-cü il martın 15-dən Fransanın təhsil müəssisələrində dini rəmzləri və ya dini inancları simvolizə edən geyimlər qadağan olunub. O vaxtdan bəri ölkədə müsəlman geyiminə qadağa qoyulması ilə bağlı müzakirələr müntəzəm olaraq qızışıb və bu geyimin təhsil müəssisəsinin girişində çıxarılması tələb olunur.

# LƏNKƏRANDA AZƏRBAYCAN İLAHİYYATÇILARININ FORUMU KEÇİRİLİB



Avqustun 24-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Lənkəran şəhərində Azərbaycan ilahiyyatçılarının Forumunun açılış mərasimi olub.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, ilahiyyatçı alimlər və mütəxəssislər iştirak edib.

Çıxışlardan əvvəl Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, Qurani-Kərim tilavət olunub.

Forumda açılış nitqi ilə çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov ölkəmizdə keçirilən Azərbaycan ilahiyyatçılarının Forumunun əhəmiyyəti barədə danışıb. M.İsmayılov ilahiyyatçıların qarşılıqlı fəaliyyətinin gücləndirilməsi, onların dini-mənəvi istiqamətdə səmərəli fəaliyyətinin vacibliyini vurğulayıb. Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən bu sahədə ardıcıl olaraq müxtəlif layihələrin icra edildiyini diqqətə çatdırıb.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Azərbaycan ilahiyyatçılarının Forumunun keçirilməsini önəmli və zəruri tədbir kimi qiymətləndirərək 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin həyatında siyasi, iqtisadi, mədəni, o cümlədən dini-mənəvi baxımdan yeni bir mərhələnin başladığını bildirib. O qeyd edib ki, bu mərhələdə hər bir Azərbaycan ziyalısının, eləcə də onun tərkib hissəsi kimi ilahiyyatçıların üzərinə böyük yük və vəzifə düşür: "44 günlük Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında 10 milyonluq orduya çevrildi. Etnik və dini mənsubiyyətimizdən asılı olmayaraq, dəmir yumruq kimi birləşməyi, savaşmağı və qalib gəlməyi bacardıq. Bu, həm də Azərbaycan xalqının mənəvi yetkinliyinin, milli-mənəvi dəyərlərinə, torpağına, dövlətinə sədaqətinin göstəricisidir. Biz müzəffər xalq, müzəffər dövlətik. Bu, bizim üçün həm fəxr, həm də məsuliyyətdir".

G.İsmayılov işğaldan azad olunmuş ərazilərdə tarixi-dini abidələrin bərpasına toxunub, Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi ardıcıl tədbirlərdən danışıb. O vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərimizdə ilk bərpasına başlanılan binalar məhz tarixi-dini abidələrimizdir: "Şuşa, Ağdam, Zəngilan və digər rayonlarımızda dağılmış məscidlərimiz bərpa edilir, yeni ibadət evləri tikilir. Bütün bu proses Prezident İlham Əliyevin rəhbərliyi və nəzarəti altında aparılır. O, tarixi-dini abidələrimizin bərpasına, yenidən qurulmasına həssaslıqla yanaşır, dini icmalar və din xadimlərinə qayğısını əsirgəmir. Şübhəsiz ki, bu sahədə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanmalıdır. Fond indiyədək bu istiqamətdə çoxsaylı layihələr həyata keçirib".

Sədr müavini ölkədəki mövcud dini durum və qarşıda duran vəzifələrdən danışaraq qeyd edib ki, ölkədə və xaricdə dini təhsil almış xeyli sayda mütəxəssis var. Onların potensialından düzgün istifadə etmək baxımından ilahiyyatçıların Forumunun keçirilməsi təqdirəlayiqdir: "Bu gün dünyada qloballaşma prosesinin fonunda bir sıra problemlər öz aktuallığını hələ də saxlayır. Etnik, dini və irqi ayrı-seçkilik, islamofobiya, antisemitizm, dini radikalizm, terrorçuluq, dinin siyasiləşdirilməsi, dini fanatizm, qadın hüquqlarının məhdudlaşdırılması bəşəriyyətin üzləşdiyi ciddi problemlərdir. Azərbaycan bu problemlərdən uzaq, multikultural, tolerant ölkədir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Multikultural və tolerant cəmiyyətimizdə birgəyaşayış ənənələri, vəhdət və qardaşlıq dəyərləri təbliğ olunur. Eyni zamanda, beynəlxalq aləmdə də bu dəyərlərin, o cümlədən dinlərarası dialoqun, İslam dünyasında birliyin və vəhdətin güclənməsi təşviq edilir. Azərbaycan bu gün Qərbdə güclənən dini dözümsüzlüyü, islamofobiyanı, bunun nəticəsi kimi Quranın yandırılmasını qətiyyətlə pisləyir. Belə bir vəziyyətdə ilahiyyatçıların bir araya gələrək bu məsələləri müzakirə etmələrini və öz məsuliyyətlərini dərk edərək imkanlarını səfərbər etmələrini müsbət qiymətləndirmək lazımdır". Dövlət Komitəsinin rəsmisi ölkədə dini konfessiyalar arasındakı münasibətlərə də toxunub: "Azərbaycanda dövlətlə dini qurumlar arasındakı münasibətlər başqaları üçün nümunə sayıla bilər. Dövlət Komitəsi bu istiqamətdə bütün dini konfessiyalarla, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığın uğurlu nəticələri göz qabağındadır. Əminliklə deyə bilərik ki, artıq ənənəyə çevrilmiş bu münasibətlər gələcəkdə də qorunub saxlanılacaq".

G. İsmayılov ilahiyyatçıların müzakirələrdə aktiv iştirak edəcəklərinə, konkret təkliflərlə çıxış edəcəklərinə ümidvar olduğunu, ixtisaslı mütəxəssislərin imkanlarından istifadə etmək baxımından bu cür tədbirlərin gələcəkdə də keçiriləcəyini vurğulayıb: "Azərbaycanda ilahiyyat elmi, ilahiyyatçıların hazırlanması, eləcə də dini radikalizm, terrorçuluq, xurafat, məzhəbçilik, dinin siyasiləşdirilməsi ilə mübarizə, milli-mənəvi dəyərlərimizin, multikultural və tolerant prinsiplərin təbliği və digər məsələləri müzakirə edəcəyik, ən əsası isə bu məsələlərin həllində ilahiyyatçıların iştirakı və rolu barədə fikir mübadiləsi aparacağıq. Ümid edirəm ki, bütün bunların hamısı ölkəmiz və cəmiyyətimiz üçün faydalı olacaq".

Forumda çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov ilahiyyatçıların praktik fəaliyyəti, onların cəmiyyətdəki mövqeyinin gücləndirilməsi haqqında danışıb. Rektor ilahiyyatçı mütəxəssislərin milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində daha aktiv iştirakının böyük əhəmiyyət kəsb etdiyini bildirib. Azərbaycan İlahiyyat İnstitutunun dini ixtisaslı kadrların hazırlanması istiqamətində fəaliyyətinə toxunan A.Şirinov yüksək peşəkar mütəxəssislərin formalaşmaqda olduğunu qeyd edib.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovun moderatorluğu ilə "Azərbaycanda ilahiyyat elmi və milli kadrların hazırlanması" mövzusunda panel keçirilib.

Qeyd edək ki, 24-25 avqust tarixlərini əhatə edən ikigünlük Forum çərçivəsində bir sıra mövzularda müzakirə panelləri təşkil edilib, müxtəlif məruzələr dinlənilib və mütəxəssislər arasında diskussiyalar keçirilib.

# DANİMARKA "QURANİ-KƏRİM"İN YANDIRILMASINI QADAĞAN EDİR



Danimarka qanunvericilik səviyyəsində "Qurani-Kərim"in yandırılmasını qadağan edir. Bu barədə ədliyyə naziri Peter Hummelqaard məlumat verib.

"Deutsche Welle" nəşrinə istinadən, hökumət belə qadağanın söz azadlığını pozduğunu bildirən ölkənin bəzi müxalifət partiyalarının etirazlarını qəbul etməyib.

"Qanun layihəsi dini icma üçün mühüm dini əhəmiyyət kəsb edən obyektlərlə pis rəftarı qadağan edir", - deyə Peter Hummelqaard jurnalistlərə bildirib.

O əlavə edib ki, qanun layihəsi ictimai yerlərdə yandırma və digər təhqir etmə növləri ilə bağlı hərəkətlərə şamil ediləcək.

"Qanun layihəsində, misal üçün, "Qurani-Kərim", "İncil" və ya "Tövrat"ın ictimai yerlərdə yandırılmasına görə məsuliyyət nəzərdə tutulub. Mən prinsipial olaraq, hesab edirəm ki, əşyaların yandırılmasından fərqli olaraq, fikirlərin ifadə edilməsinin daha sivil üsulları mövcuddur", - deyə o vurğulayıb.

"NY Times" nəşrində deyilir ki, "qanun layihəsinə əsasən, mühüm dini əhəmiyyət kəsb edən obyektlə pis rəftarda təqsirkar bilinən şəxslər cərimələnə və ya iki ilədək müddətə azadlıqdan məhrum edilə bilər".

Danimarka belə tədbirləri son aylarda baş vermiş çoxsaylı hadisələrlə əlaqədar olaraq görmək məcburiyyətində qalıb. Belə ki, Danimarka və İsveçdə ictimai yerlərdə "Qurani-Kərim" nüsxələrinin yandırılması və ya təhqir edilməsi bir neçə müsəlman ölkəsində hiddətə səbəb olub. Onlar Şimali Avropa ölkələrindən bu cür aksiyaları qadağan etməyi tələb ediblər.

# ROMA PAPASI ÜMUMDÜNYA GƏNCLƏR GÜNÜNDƏ LİSSABONA SƏFƏR EDİB



Roma Papası Fransisk Ümumdünya gənclər günü münasibətilə təşkil olunan festivalda iştirak etmək üçün Lissabona səfər edib.

86 yaşlı pontifikin sayca 42-ci xarici apostol səfəri dörd gün davam edib. Roma Papasının səfəri Portuqaliya rəhbərliyinə və vətəndaş cəmiyyəti nümayəndələrinə müraciətlə başlayıb. Həmçinin Fransisk rəsmi görüşlərdə iştirak edib, yerli ruhanilərin nümayəndələri ilə ünsiyyətdə olub.

Sonra isə pontifik gənclərlə görüşüb və festivalın rəsmi açılışını edib. Səfər çərçivəsində o, Müqəddəs Məryəmin Fatimə şəhərindəki ziyarətgahına da gedib və orada xəstələrlə birlikdə dua edib.

Səfərlə bağlı rəsmi qeydiyyatdan keçən ziyarətçilərin sayı 330 min olsa da, Portuqaliyanın paytaxtına 1 milyona yaxın insanın gəldiyi deyilir.

Qeyd edək ki, hər iki-üç ildən bir keçirilən gənclər yığıncağında ənənəvi olaraq Roma-katolik kilsəsinin rəhbərləri də iştirak edirlər. Ümumdünya gənclər günü 1986-cı ildə Roma Papası İoann II Pavel (1920-2005) tərəfindən təsis edilib. Müxtəlif ölkələrdə keçirilən tədbir sonuncu dəfə 2019-cu ildə Panamada baş tutub.

# DQİDK-NIN ŞÖBƏ MÜDİRİ ELNARƏ KƏRİMOVA: "DİN XADİMİ OLMAQ ÜÇÜN DİNİ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ ŞƏRTDİR"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova TNS.az-ın suallarını cavablandırıb.***
*Müsahibəni təqdim edirik.*



**- Din xadimlərinin işə götürülməsi zamanı hansı kriteriyalara üstünlük verilir?**

- Ötən il "Dini etiqad azadlığı haqqında" Qanuna dəyişiklik edilib. Həmin dəyişikliyə əsasən, məscid və ziyarətgahlara din xadimlərinin təyinatı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilir. Bu prosesin şəffaf və obyektiv keçirilməsi üçün "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" hazırlanıb və Ədliyyə Nazirliyində normativ hüquqi akt kimi qeydiyyatdan keçib.

Qanuna əsasən, din xadimi təyin olunacaq şəxsin mütləq dini ali və ya orta ixtisas dini təhsili olmalıdır. Amma bu, din xadimi kimi təyinat almaq üçün yeganə tələb deyil. Çünki dini təhsili olan, bununla yanaşı, Dövlət Komitəsi tərəfindən təşkil olunan müsahibədə uğur qazanan şəxs din xadimi kimi təyinat ala bilər.

Müsahibə isə yalnız ilahiyyatçılardan ibarət komissiya tərəfindən keçirilir. Müsahibədə din xadimi olmaq istəyən şəxslərin dini və dünyəvi bilikləri, ümumi dünyagörüşü yoxlanılır. Bunun üçün müsahibə proqramı hazırlanıb və Dövlət Komitəsinin rəsmi saytında yerləşdirilib. Hər kəs onunla tanış ola bilər. "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi" Qaydası ilə də rəsmi saytda tanış olmaq mümkündür. Bir sözlə, din xadimlərinin təyinatı ilə bağlı meyarlar birbaşa qanunvericiliyə əsaslanır.

**- Ölkədə din xadimlərinin neçə faizi ali təhsillidir? Ali təhsili olmayan din xadimlərinin təhsilli şəxslərlə əvəz edilməsi istiqamətində hansı işlər görülür?**

- Onu deyə bilərəm ki, məscidlərdə fəaliyyət göstərən din xadimlərinin böyük hissəsi dini təhsillidir. Lakin dini təhsili olmayan şəxslər də var ki, onlar tədricən təhsilli şəxslərlə əvəz olunur. Çünki qeyd etdiyimiz kimi, bu, Qanunun tələbidir və din xadimi olmaq üçün dini ali və orta ixtisas təhsili şərtdir. Deməli, təhsilsiz şəxslər ixtisaslı kadrlarla əvəz edilməlidirlər və əminliklə demək olar ki, bu proses uğurla başa çatdırılacaq.

**- Xaricdə dini təhsil almış şəxslərin işə qəbulu zamanı hansı kriteriyalara cavab verməsi nəzərdə tutulur? Həmin şəxslərin təhsil aldıqları ölkələrin təsirində olması barədə iddiaların mövcudluğunu nəzərə alsaq, onlar arasında seçim necə aparılır?**

- Xaricdə dini təhsil almış şəxslər də din xadimi olmaq üçün təşkil olunan müsahibədə iştirak edə bilərlər. Onlara münasibətdə fərqli meyarlar və tələblər tətbiq olunmur. Harada dini təhsil almasından asılı olmayaraq, din xadimi olmaq istəyən şəxs qanunvericiliyə uyğun şəkildə müsahibədə iştirak etməli və uğur qazanmalıdır. Yalnız bundan sonra o, Dövlət Komitəsi sədrinin əmri ilə təyinat ala bilər.

**- Nəzir qutularına nəzarəti indi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirir. Nəzir qutuları necə açılır, bu işə necə nəzarət olunur, nəzir qutularından toplanan vəsait hara xərcələnir?**

- Bəri başdan deyim ki, hazırda nəzir qutularına nəzarəti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirmir. Bizim bu məsələ ilə bağlı dəfələrlə mövcud vəziyyət və qanunvericilik bazası barədə açıqlama verməyimizə baxmayaraq, təəssüf ki, hələ də bəzi mətbuat orqanlarında yanlış fikirlər tirajlayanlar, Dövlət Komitəsinə qarşı haqsız və əsassız ittihamlar səsləndirənlər var. "Dini etiqad azadlığı haqqında" Qanuna əsasən, dini qurumlar könüllü ianələr üçün müraciət edə, habelə bu ianələri, o cümlədən ianə edilmiş pul vəsaitlərini nağd və ya bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə qəbul edə bilərlər. İanələrin elektron şəkildə toplanması, sərf olunması ilə əlaqədar Qanundan irəli gələn məsələləri tənzimləmək üçün "İanə edilmiş pul vəsaitlərinin dini qurumlar tərəfindən qəbul edilməsi Qaydası" layihə formasında Dövlət Komitəsi tərəfindən işlənərək müvafiq qaydada təqdim edilib. Qeyd olunan qaydalar təsdiq olunduqdan sonra ictimaiyyətə ianələrlə bağlı mexanizmin hansı formada tənzimlənəcəyi ilə bağlı ətraflı məlumat veriləcək. Sözügedən qaydalar təsdiqlənməyənə qədər Dövlət Komitəsinin nəzir qutuları və ianələrlə bağlı məsələləri tənzimləməsi, eləcə də nəzarət etməsindən danışmaq doğru deyil və əsassızdır. Bu barədə daha geniş məlumatı Dövlət Komitəsinin rəsmi saytından əldə edə bilərsiniz.

**- Qafqaz Müsəlmanları İdarəsi ilə Komitə arasında anlaşmazlıqların olduğu barədə fikirlər səslənir. Nəzir qutularına nəzarətin Komitəyə verilməsindən sonra bu mövzu daha çox gündəmə gəldi. Həqiqətən belə narazılıq varmı?**

- Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında hansısa ziddiyyətdən və anlaşılmazlıqdan söhbət gedə bilməz. Bununla bağlı deyilənlərin heç bir əsası yoxdur. Dövlət Komitəsi ölkədəki bütün dini konfessiyalarla olduğu kimi, Qafqaz Müsəlmanları İdarəsi ilə də hər zaman sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərib. Birgə əməkdaşlığın nəticəsində əldə olunan uğurlar göz qabağındadır. Bundan sonra da birgə fəaliyyətimizi davam etdirəcəyik.

## AİLƏ SƏADƏTİ

Məhəbbət, qarşılıqlı sevgi ailə həyatını gözəlləşdirən, ona sevinc və xoşbəxtlik bəxş edən amillərdəndir. Ailədə mehribanlıq nə qədər çox olarsa, ailə bir o qədər möhkəm olar.

Xoşrəftar və mehribanlıq ailənin əsas ehtiyaclarındandır. Ailə yalnız cinsi və ictimai ehtiyacların təmin edilməsi üçün deyil, eyni zamanda, məhəbbət, səmimiyyət və əxlaq ocağıdır. Qurani-Kərimdə buyurulur: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir..." (ər-Rum, 21).

Xoşbəxt ailənin formalaşması üçün həm kişi, həm də qadın üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, özlərində ailəyə bağlılıq hissi oyatmalıdırlar.

Kişinin qadınla necə davranması barəsində Məhəmməd peyğəmbər (s) buyurmuşdur: "Möminlərin iman baxımından ən mükəmməli, əxlaqca ən gözəl olanlarıdır. Sizin ən xeyirliniz qadınlara qarşı ən yaxşı rəftar edəninizdir" ("Riyazüs-salihin").

Kişi və qadın ailədə xoşbəxtliyi təmin etmək üçün fədakarlıq göstərməli, rahatlığı pozan davranışlardan uzaq durmalıdır. Ailə xoşbəxtliyi üçün qadın da kişi qədər məsuliyyət daşıyır. O, ərinə ən yaxın dost, hər işdə ona dəstək olmalıdır. Kişinin nailiyyət qazanmasında qadının da böyük payı var. Əbəs yerə deməyiblər ki, hər öndə gedən kişinin arxasında ağıllı qadın dayanır.

İslam dini ailə üzvləri arasındakı səmimiyyəti möhkəmlətmək məqsədilə müəyyən qayda-qanunlar göstərmişdir. Məsələn, "əl-Bəqərə" surəsinin 228-ci ayəsində



deyilir: "...(Kişilərin qadınlar) üzərində şəriətə görə hüquqları olduğu kimi, (qadınların da) onlar (kişilər) üzərində hüquqları vardır..."

İslam ailə həyatındakı vəzifə və məsuliyyəti kişi ilə qadının fiziki imkanlarına görə bölüşdürüb, kimin üzərinə daha çox vəzifə və məsuliyyət düşərsə, ona da bəzi əlavə hüquqlar verib.

Kişi ailənin maddi cəhətdən təmin edilməsinə cavabdehdir. Qadın isə uşaqların qayğısına qalmalı, onların tərbiyəsilə məşğul olmalı, ərinin izzət və namusunu qorumalı, ailə işlərini tənzimləməlidir.

Dinimiz ailəyə başçı kimi kişini seçmişdir. Ancaq bu, ailədə qadınla məsləhətləşmək, həmkarlıq və qarşılıqlı anlaşma ilə ziddiyyət təşkil etməməlidir. Kişinin ailədaxili məsələlərdə ixtiyar sahibi olması o demək deyil ki, o, ailədə istədiyini edər və istədiyi kimi də davrana bilər. Ərin ixtiyar sahibi olması onun qadınla müqayisədə daha çox ailə məsuliyyəti daşıması, dolanışığı təmin etməsi və s. məsələlərdən irəli gəlir.

İslam kişini ailə başçısı təyin etsə də, qadına qarşı zor işlətməyi qadağan edir: "...(Qadınlar) açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin..." (ən-Nisa, 19).

Ər-arvad münasibətlərinin və ailə tellərinin zəifləməsi, habelə boşanmaların sayının artması, əhəmiyyətsiz və kiçik səbəblər üzündən ailələrin dağılması, evlilik məsələsinə məsuliyyətsiz yanaşmanın nəticəsidir.

Bəzi insanlar evləndikdən sonra ailə məsuliyyətini tam şəkildə anlamır və subaylıq dövrünün ab-havası ilə yaşayırlar. Onlar həyat yoldaşlarının varlığını bəzi konkret məsələlərdə duyur, ancaq dərk etmirlər ki, həyat yoldaşı insan üçün həm də ən yaxın dostdur.

Hər ailədə müəyyən vaxtlarda bəzi narazılıqlar baş verir. Kişi və qadın bu cür hallarda vəziyyəti gərginləşdirməməli, bir-birini bağışlamağı bacarmalıdırlar. Axı kişi ilə qadın təkcə fizioloji baxımdan deyil, psixoloji cəhətdən də əhəmiyyətli dərəcədə fərqlənirlər.

Kiçik cəmiyyət hesab olunan ailədə hər kəsin bir-birinə qarşı əxlaqi vəzifə və öhdəliklərini yerinə yetirməsi böyük əhəmiyyət daşıyır. Ailənin xoşbəxtliyi və cəmiyyətin gələcəyi məhz bundan asılıdır.

**Namiq ZEYNƏDDİN,**
ilahiyyatçı

# ŞƏHİDLƏR DİYARI – QARABAĞ

*(Səfər qeydləri)*

Yolumuz bir qüdsi diyaradır. İllərdir ki, istila altında qalmış, kədərlə yoğrulmuş bir məkana – dağların zirvəsində qartal yuvasına bənzər Laçına gedirik. Yolumuz Horadizdən keçir. 28 ilin ağır basqısı hər təpədə, hər vadidə öz izini göstərir. Dağlar, daşlar, açan güllər, doğan günəş belə bu ərazilərdə bam-başqa görünür. Hüzn, kədər, dərd hər addımbaşı hiss olunur. Yolumuz getdikcə qısalır. Yeni çəkilən Zəngəzur yoluna çıxanda insan qəlbinin ritmi dəyişir. Dərindən gələn bir səs "hər zəfərin bədəli var" - deyir. Vicdanlı insan utanır bu səsdən. Ürpənir, oyanır, qəlbi şahlanır. Çünki bu yol Böyük Azərbaycanın nəfəs borusu sayılır. Bəli, biz saatlar sonra Laçının səmaya açılan gözlərini seyr edirik. Hər müsafirini bağrına basdığını sezirik. Sanki şəhidlərimizin ruhaniyyəti salamlayır Laçının mehmanlarını. Sərin hava seli, ruhani baxışlar arasında ilk gedəcəyimiz yerə dönürük Hüsülü kəndində. Həmzə Sultan sarayının tam yanında avtomobildən enirik. Solumuzda Həkəri çayı axır. Səcdə halında axışı, səsindəki həyacan qonaqlarını səsləyir. Biz də bu səsə biganə qalmadan ora yönəldik. Şəhidlər diyarının şəhidlərindən biri olan Həkəri çayında dəstəmaz almaq şərəfinə nail olduq. 4 gün bu kəndin müsafiri olmalıyıq...

Məna dünyamızda ulduz kimi parlayan səfərimiz sərhədlərimizdə xidmət edən əsgərlərimizlə taclanır. Çünki səfərimizin qayəsi barıt qoxuyan səngərlərdə keşik çəkən igidlərimizi ziyarət idi. Həqiqət dəyişməz, lakin ona baxışlar dəyişər. Biz də həqiqətləri gözlərimizlə görürük. Postlar həm çox uzaqlarda, həm də yüksəkliklərdə yerləşir. Hər bir posta getmək üçün bəzən yarım, bəzən də bir saat lazım olur. Avtomobilimiz də küheylanlar kimi çəkir, sərt qayalara dırmanır. Növbəti postun igidlərinə çatmaq həyəcanını yaşayırıq. Beləcə, postun ərənlərini salamlayırıq. Yanımızda yüksək rütbəli zabitlər olduğu üçün məruzələr edilir, fərağat komandaları eşidilir. Sonra dağ zirvələrində yerləşən əsgər otaqlarına daxil oluruq. Təmizlik, gözəllik bir yana, onların simasındakı sevinc və qüruru gördükcə insan ömrünün bərəkətləndiyi hiss edir. Əllər sıxılır, əsgərlər bağıra basılır, qardaşlıq mesajları dilə gəlir. Müqəddəs dəyərlərimiz, səmadan enən ayələr, Rəsullar Rəsulunun hədisləri xatırlanır. Üçrəngli Bayrağımızın səmadakı pıçıltıları altında söhbət etməyin bəxtiyarlığı vurğulanır. Bu, sıradan bir yer deyil, Gorus rayonunun zirvəsindəyik. Əsrlərdir parçalanan, didilən, işğal edilən torpaqlarımızın hürriyyətini bu zirvədən seyr etmək hər bir vətəndaşımızın iftixarı olduğunu da anlayırıq. Çünki 44 günlük Vətən müharibəsi Qarabağdakı vəhşətin kökünü qurudub. Tarixizimin yeni bir səhifəsini açıb. Elə biz də bu ağ səhifənin yeni yazarlarını ziyarət edirik. Hər gün altı-yeddi posta çata bilirik. Hər bir zirvə müsafirini fərqli bir aləmə götürür. Dağların sinəsində açan güllər hər



yüz metrdən-bir dəyişir. Sanki təbiət də müsafirini yormur, yenilikləro zənginliyini nümayiş etdirir.

Səfərimizin üçüncü günü planda Qaragöla səfər var idi. Dəniz səviyyəsindən 2500 m-dən yüksək olan adsız yüksəkliklərə üz tuturuq. Nəhayət, dərinliyi 10 metr civarında olan mübarək gölə çatırıq. Ona görə mübarək deyirik ki, Qaragöl azadlığına şəhid qurbanı almışdı. Adsız zirvələrdən Ermənistan ərazilərini nəzarətdə saxlayan aslanlarımızla görüşürük. Təminatları, yeyəcəkləri, yatacaqları ilə tanış oluruq. Dağın zirvəsində xəmir qatıb çörək bişirən əsgərin əllərindən öpülür. Səngərdə keşik çəkən igidlərimizin alnı öpülür. Hər biri Vətənin qoxusunu ciyərlərinə çəkib xidmət edir. Avqustun 6-dakı hava sanki qışın sərt soyuğu kimi adamı kəsir. Lakin önündəki dağ aslanlarının yanında "üşüyürəm" deməyə də xəcalətlənirsən. Hər səngərdə, hər bir dayaq nöqtəsində keşik çəkən heyətlə söhbət edirik. Ana Vətənə sevgi, bayrağa olan sevda, azərbaycançılıq məfkurəsi bizi daha da ruhlandırır, daha çox yerə getmək həvəsimizi artırır. Qaragölü ziyarət etdikdən sonra daha fərqli istiqamətlərə irəliləyə-irəliləyə gedirik. Laçının yerlə-yeksan edilmiş kəndləri qarşımıza çıxır. Biz isə Hüsülü kəndini tərk edərək növbəti günlərimizi Ərdəşəvi kəndində keçirməliyik. Ona görə də yolumuzu Laçın şəhərinin içərisindən salırıq. Dağların qoynunda möhtəşəm bir ruha sahib şəhər müsafirlərinə həyəcanlı anlar yaşadır. Şəhidlərimizin ruhuna dualar oxuyur, qazilərimizi mədh edə-edə gedirik. Dəmir yumruğun əzəmətini xatırlayır, müzəffər Ali Baş Komandanın sarsılmaz əzmini dilə gətiririk. Dost ölkələrdən uzanan şəfqətli əllərin izlərini seyr edərək daha da yüksəkliklərə uz tutaraq Ərdəşəvi kəndinə qonaq gəlirik. Adı "ardıc ağacları" mənasını verən bu kəndin qonağı oluruq. Lakin əsas işimiz digər mövqelərimizdə görüşlər keçirməkdir. Bir çox zabit və kamandirimizin də fikirlərini alaraq gənc əsgərlərimizlə həsb-hal edirik. Əlbəttə, düşüncə oxumaqla, qəlb isə sevməklə şəkillənir. Xidmətin şərtlərinə qeyri-şərtsiz tabe olan torpağın oğulları ilə göz-gözə gəlirik. Çünki elə postlar var ki, düşmənlə məsafə sadəcə 3-4 metrdir. Dörd metr məsafədə təcavüzkar ermənınin qarşısında dağlar kimi çiyin-çiyinə verib dayanan əsgərlərin gözlərinə baxmağın savab olduğunu düşünürük. Bu gözlərdə həsrət qönçəsinin əvəzinə ümid işığının parladığını görürük. Onları yetişdirən mübarək analarımızı, qeyrətli atalarımızı xatırlayırıq. Psixoloji dəstək, ruhani söhbətlər, Vətən laylası çox yerinə düşür. Hər söz könül sarayına qoyulan kərpicə bənzəyir. Söz ağlın səviyyəsini nümayiş etdirir. Bu məqamda əsgərlərin arasında yaranan gözəl hisslərin anladılması da çox çətinləşir. Çünki burada sevgidən gələn hörmət qorxudan gələn hörmətdən ayrılır. Vətənə saf xidmət edən ərənlərin əməllərini gördükcə daha çox çalışmalı olduğumuzu bir daha idrak edirik. Mücadilə ruhumuzun artması üçün Rəbbimizə yalvarırıq.

Bu şərəfli səfərimiz 8 gün davam edir. Təqribən 46-47 postda aslanlarımızın qarşısına çıxıb onlarla söhbət etmiş oluruq. İndi isə yenidən Bakıya üz tuturuq. Yol boyunca cənab zabitlərlə – Müdafiə Nazirliyinin iki polkovniki ilə təəssüratlarımızı bölüşürük. Əsgərliyin bir peyğəmbər məktəbi olduğunu xatırlayır və bu məktəbin bizi ən qısa zamanda Xanın kəndinə aparacağına əminliyimizi vurğulayırıq.

İnsan uzun yola çıxan müsafirdir. Dünya evinə gəldiyimiz kimi, bir gün də buradan gedəcəyik. Önəmli olan burada olduğumuz müddətdə Vətənimizə, xalqımıza və insanlığa faydalı olmaqdır.

**Ağa Hacıbəyli**
ilahiyyatçı

## TANIYAQ TANIDAQ: MƏSCİDLƏRİMİZ

### CƏRCİS PEYĞƏMBƏR MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİ
*(Beyləqan rayonu)*



Cərcis peyğəmbər məscid-ziyarətgah kompleksi Beyləqan şəhəri yaxınlığında, Şəfəqli kəndində yerləşir. Bişmiş kərpiclə işlənən binanın hündürlüyü 7 metrdir. Birmərtəbəli bina üçün həddən artıq böyük günbəzi var. Lakin kənardan baxanda binanın dəyirmi üstü ilə düzbucaqlı gövdəsi maraqlı şəkildə bir-birini tamamlayır. Qədim ziyarətgah XX əsrin əvvəllərində Həsən adlı təbrizli bənna tərəfindən məscid görünüşündə inşa edilmişdir. Deyilənə görə, bu, zalım şah tərəfindən işgəncə ilə öldürülən və Allah tərəfindən yenidən diriltdilən Cərcis peyğəmbərin qəbridir.

Rəvayətə görə, Romadan Cərcis adlı tacir Mosula gəlir və buradakı hakimin hamını "Əflun" adlı bütə səcdə etməsini tələb etdiyini görüb ona etirazını bildirir. Bu səbəbdən şah onu edam etdirir. Buna baxmayaraq, Allah Cərcisi yenidən həyata qaytarır və ona peyğəmbərlik verir. Cərcis peyğəmbər Dəməşqdə təkallahlığı yaydıqdan sonra o zaman Şərqin ən böyük şəhərlərindən biri olan Beyləqana gəlir və burada ömrünün son illərini yaşayır.

Hazırda Azərbaycanda, eləcə də Dağıstan və Gürcüstanda Cərcis peyğəmbər ziyarətgahı məşhur olmuş, hər yerdən bura axın-axın adamlar ziyarətə gəlmişlər. Hətta sovet illərində də Cərcis peyğəmbəri ziyarətə gələn insanların qarşısını heç bir təbliğat, heç bir qadağa ala bilməmişdir.

**Hazırladı: Vüqar HÜMMƏTOV**

# OLEQ BABAK



Azərbaycan Şərqlə Qərbin qovşağında əlverişli məkanda yerləşdiyindən əsrlərdir ki, imperiyaların və xüsusilə də onlara buyruq qulu olan ermənilərin işğalına məruz qalmışdır. Bu gözəl torpaqlara sahib olmaq isə neçə yüz illərdir ki, xain qonşularımızın vazkeçilməz xülyası olmuşdur. Elə bu səbəbdən də son yüz ildə yurddaşlarımız öz doğma torpaqlarından qovulmuş, 1905 və 1918-ci illərdə baş vermiş münaqişələrdə on minlərlə həmvətənimiz həlak olmuş, nəhayət, Birinci və İkinci Qarabağ müharibələri baş vermişdir.

Tarix boyu işğal və əsarətlə barışmayan qəhrəman xalqımız isə azad yaşamaq, öz torpaqlarını müdafiə etmək uğrunda mübarizə aparmış, bu yolda minlərlə şəhid vermişdir. Allah yolunda və Vətən naminə savaşaraq ruhunu Uca Yaradana təslim edən əziz şəhidlərimiz isə heç şübhəsiz ölkəmizin bölünməzliyi və yurdumuzun hər qarış torpağı üçün fədakarlıq göstərən qəhrəmanlarımızdır. Onlar misilsiz şücaət və qəhrəmanlıq göstərərək özlərindən sayca və təchizat baxımından qat-qat üstün olan düşmənlə sonadək savaşmış, torpaqlarımızı müdafiə etməyə çalışmışlar. Belə unudulmaz qəhrəmanlarımızdan biri 24 yaşlı ukraynalı gənc zabit, Azərbaycan Respublikasının Şərqi Zəngəzur bölgəsində dinc əhalini erməni vəhşiliyindən xilas edərkən həlak olmuş Oleq Babakdır. O, erməni işğalçılarına qarşı döyüşlərdə igidlik göstərmiş, müdafiəsiz, dinc azərbaycanlı ailələrini xilas edərək qəhrəmanlıq zirvəsinə ucalmışdır.

Oleq Yakovleviç Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətinin Priyatinsk rayonunun Viktoriya kəndində dünyaya gəlmişdir. O, 1985-ci ildə keçmiş SSRİ Daxili İşlər Nazirliyinin Ali siyasi məktəbinə daxil olmuş və oranı 1989-cu ildə bitirmişdir. Babak hələ burada təhsil alarkən nizam-intizamlılığı, tapşırıqların öhdəsindən layiqincə gəlməsi ilə kursantlar arasında seçilmişdir. Tanıyanlar Babakı zəngin dünyagörüşünə malik, sakit təbiətli, təmkinli, mehriban, çətinliklərdən qorxmayan insan kimi təsvir edirlər. Elə bu cəhətləri ona bölük komandirinin siyasi bölmə üzrə müavini vəzifəsini əla göstəricilərlə bitirməsinə səbəb olmuşdur. Babak Ali siyasi məktəbdə təhsil aldığı müddətdə yüksək idarəçilik bacarığı nümayiş etdirmişdir. O, həm də müdavim olduğu dövrdə xüsusi tapşırıqların yerinə yetirilməsi üçün göndərildiyi Cənubi Qafqazdakı fəaliyyəti zamanı çətin və gərgin şəraitdə düzgün qərar qəbul etməsi, üzərinə düşən işi dəqiq yerinə yetirməsi və yüksək fiziki hazırlıq səviyyəsi ilə başqalarından seçilmişdir.

Babak hərbi məktəbi bitirdikdən sonra Moskva vilayətindəki Sofrino qəsəbəsində keçmiş SSRİ Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı qüvvələrinin 21-ci briqadasında xidmətə başlamışdır.

O, ermənilərin torpaqlarımıza təcavüzü başladıqdan sonra keçmiş SSRİ daxili qoşunlarının tərkibində Azərbaycan Respublikasının Şərqi Zəngəzur bölgəsində ictimai asayişi qorumaq üçün göndərilmişdir. Babakın yüksək peşəkarlıq səviyyəsi özünü savaş meydanında da parlaq göstərmişdir.

Gənc zabit burada peşəkar hərbçilik nümunəsi göstərməklə yanaşı, düşmənin hücumları nəticəsində yaranmış gərgin vəziyyətdə belə malik olduğu humanist dəyərləri nümayiş etdirməyi bacarmışdı. Belə ki, o, 1991-ci il aprelin 7-də Azərbaycan Respublikasının Qubadlı rayonunun Yuxarı Cibikli kəndinin dinc sakinlərinin ermənilər tərəfindən qətlə yetirilməsi xəbərini alır. Ermənilərin dinc əhaliyə qarşı hücumlarına səssiz qala bilməyən Babak tabeçiliyindəki hərbçilərlə birlikdə hadisə yerinə yollanaraq, var gücü ilə işğalçılara qarşı savaşır. Vəziyyətin gərgin olduğunu anladıqdan sonra isə hərbçi yoldaşlarına silah-sursatı ona verib geri çəkilməyi əmr edir. Özü isə kənd sakinlərini hücumdan xilas etmək üçün 70-dən çox erməniyə qarşı təkbaşına döyüşür. Qeyri-bərabər döyüşdə xüsusi fədakarlıq göstərən Babak sonuncu gülləsinədək vuruşur. Döyüş sursatı qurtardıqdan sonra isə ermənilər tərəfindən amansızlıqla qətlə yetirilir.

Beləliklə, gənc zabit öz həyatı bahasına da olsa, tabeçiliyində olan əsgərlərini və dinc əhalini xilas etməyi bacarır. Onun xidmətini başa vurmasına isə cəmi bir ay qalmışdı. Ailənin tək oğlu olan Babak bundan sonra vətəninə qayıdıb toyunu edəcəkdi...

Oleq Babak qəhrəmanlıqla həlak olduqdan sonra doğma kəndində dəfn edilmişdir. Ölümündən sonra ona hərbi borcunu yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq və igidliyə görə 1991-ci il sentyabrın 17-də Sovet İttifaqı Qəhrəmanı adı verilmiş, "Lenin" ordeni ilə təltif olunmuşdur. Keçmiş SSRİ daxili işlər nazirinin əmri ilə Babakın adı əbədi olaraq 21-ci xüsusi təyinatlı Sofrino briqadasının şəxsi heyətinin sırasına daxil edilmişdir. 2010-cu ilin oktyabrında isə Moskva vilayətinin Puşkin rayonundakı parkda Babakın abidəsi ucaldılmışdır. Qəhrəmanın adı həm də təhsil aldığı Viktoriya kənd məktəbinə və Moskva yaxınlığındakı Aşukin kəndindəki küçələrdən birinə verilmişdir.

Unutmayaq ki, bu gün sahib olduğumuz gözəl Vətənimiz uğrunda savaşaraq canlarından keçən və hər qarışını öz qanları ilə sulayan qəhrəmanlarımızın bizə əmanət etdikləri torpaqlardır. Biz də canları və qanları bahasına Vətənimizi qoruyaraq bizə miras buraxan qəhrəmanlarımızı minnətdarlıqla anır və Allahdan onlara rəhmət diləyirik. Gəlin onların fədakarlıqla qoruyub bizə çatdırdıqları əmanətləri nəyin bahasına olursa-olsun, qoruyaq və gələcək nəsillərə ötürək...

**Hazırladı: Vüqar HÜMMƏTOV**

# HİNDİSTAN XRİSTİANLARI DİSKRİMİNASİYA ƏLEYHİNƏ "QARA GÜN" YÜRÜŞÜ KEÇİRİBLƏR

Hindistan xristianları hər il olduğu kimi bu il də avqustun 10-da toxunulmazlar kastasından olan (dalitlər) xristian və müsəlmanların məruz qaldığı ayrı-seçkiliyə qarşı "Qara gün" yürüşü keçiriblər. Builki etiraz paytaxtdakı Müqəddəs Qəlb Kafedralı (Sacred Heart Cathedral) qarşısında səssiz nümayiş şəklində baş tutub. Bu barədə "christiantoday" xəbər verib.

Bu icmalar sırf dini inanclarına görə daim Hindistan hökumətinin Təsdiq Fəaliyyət Proqramlarından kənarda qalırlar. Hər il keçirilən "Qara gün" yürüşü rəsmilərə bu dini ayrı-seçkiliyə son qoymağın vaxtının çatdığını xatırlatmaq məqsədi daşıyır. Bu il Yeni Dehlidə səssiz nümayiş şəklində baş tutan nümayişdə Hindistanın Katolik Yepiskopları Konfransı (CBCI), Hindistan Milli Kilsələr Şurası və Xristian Dalitlərin Milli Şurası da daxil olmaqla bir çox insan hüquqları müdafiəçiləri və dini təşkilatlar iştirak ediblər.




Avqustun 10-unu "Qara gün" kimi qeyd etmək ənənəsi 2009-cu ildə xristian dalitlər arasında yaranıb və zamanla ölkənin, demək olar ki, bütün xristian məzhəbləri, o cümlədən müsəlman dalitlər tərəfindən mənimsənilib. Bununla dini azlıqların nümayəndələri Hinduizmdən başqa dinlərə keçməyə qərar verən məzlum vətəndaşlar üçün mənzil rezervasiyası güzəştlərini ləğv edən 1950-ci il prezident fərmanına etiraz edirlər. "Bu fərman 1950-ci il avqustun 10-da qüvvəyə mindiyinə görə biz onu toxunulmazlar kastasından olan xristianlar və müsəlmanlar üçün "Qara gün" kimi qeyd edirik", - deyə Kastalar və Məzlum Siniflər üzrə Yepiskoplar Konfransının mətbuat katibi Vicay Kumar Nayak bildirib.

Dalitlər (toxunulmazlar) Hindistanın kasta iyerarxiyasında 2018-ci il siyahıyaalınmasına görə, ölkə əhalisinin 16-17 faizini (təxminən 200 milyondan çox insanı) təşkil edən bir sıra aşağı kastaların ümumi adıdır. Hesab olunur ki, onların toxunuşu yüksək kastaların üzvlərini, xüsusən də brahmanları murdarlaya bilər. Dalitlər daim hüquqlarının pozulmasına məruz qalır, yuxarı kastalar üçün ən çirkli işləri yerinə yetirirlər.

Müstəqillik əldə etdikdən sonra Hindistan konstitusiyası bu qrupları rəsmi olaraq onlara xüsusi qayğı və hökumət yardımı almaq hüququ verən "qeydiyyata alınmış kastalar" kimi tanıyıb. Bununla belə, hazırda 200 milyondan çox dalit kasta iyerarxiyasındakı aşağı mövqelərinə görə hələ də ədalətsizliklə üzləşir. Məsələn, müstəqillik əldə etdikdən sonra Hindistan konstitusiyasının 15 və 16-cı maddələri "bərabər imkanların təmin edilməsi" məqsədilə qeydiyyata alınmış kastalar və qəbilələr üçün təhsil müəssisələrində, o cümlədən iş yerlərində kvotalara zəmanət verdi. Ancaq 1950-ci il Konstitusiyası siniflərin bərabərliyi prinsipinə birbaşa zidd olaraq xristian və müsəlman dalitlərə yer verilməyən tənzimlənən kasta iyerarxiyasını qurdu. Qanunvericilər konstitusiyaya dəyişiklik etməklə bu iyerarxiyaya siqh və buddist dalitləri daxil etsələr də, xristian və müsəlman dalitlər kənarda qaldı, yəni onlar bu dini azlıqlara qarşı açıq diskriminasiyaya yol verdilər.

Əzilmiş kasta və dini icmaların hüquqları uğrunda mübarizə 70 ilə yaxındır ki, davam edir. Bu mübarizənin fəalları Hindistanın hazırkı Konstitusiyası ilə elan edilmiş ədalət, bərabərlik və birliyə nail olmaq üçün səylərini zəiflətmirlər.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Ağayev Həmdəm Mayıl oğlu



44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəmanlardan biri də Birinci və İkinci Qarabağ müharibələrinin, eləcə də Aprel döyüşlərinin iştirakçısı polkovnik-leytenant Həmdəm Mayıl oğlu Ağayevdir. 1975-ci il sentyabrın 9-da Ağdərə rayonunun Sırxavənd kəndində anadan olub. O, 1982-1992-ci illərdə Sırxavənd kənd orta məktəbində təhsil alıb. Həmdəm 1992-1994-cü illərdə Birinci Qarabağ müharibəsində Ağdərə rayonunun müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. 1994-cü ilin mayında müharibənin bitməsindən sonra 1995-ci ildə Həzi Aslanov adına Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə daxil olan Həmdəm Ağayev 1999-cu ildə ali hərbi təhsilini bitirib və Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başlayıb.

2000-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən "N" saylı hərbi hissəsində leytenant hərbi rütbəsində xidmətə başlayan qəhrəmanımız 2003-cü ildə baş leytenant, 2004-cü ildə kapitan, 2006-cı ildə mayor, 2012-ci ildə isə polkovnik-leytenant hərbi rütbəsi alıb.

2010-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin 4-cü Ordu Korpusunda xidmət edən Həmdəm Ağayev, 2017-2018-ci illərdə Qusar şəhərində yerləşən "N" saylı hərbi hissənin komandir müavini - qərargah rəisi vəzifəsində xidmətini davam etdirib.

İgid zabitimiz Vətən müharibəsinədək 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "İgidliyə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Hərbi xidmətlərə görə", 1-ci və 2-ci dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", "Azərbaycan Silahlı Qüvvələri Veteranı" medalları ilə təltif olunub.

Həmdəm Ağayev 2018-ci ildən 4-cü Ordu Korpusunun Qərargah rəisi vəzifəsində xidmət edirdi. Qəhrəmanımız 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində igidliyi ilə seçilib, adını şanlı zəfər tariximizə yazdırıb. Həmdəm Ağayevin komandiri olduğu ordu korpusu cəbhənin cənub istiqamətindən - Füzulidən döyüşlərə başlayıb. O, döyüşün ilk günlərində düşmənin illərdir keçilməzliyi haqqında mif yaratdığı cəbhənin yarılmasında mislisiz xidmətlər göstərib. Döyüşlərdə əsgəri Ruslan İmanquliyevin şəhid olması Həmdəm Ağayevə çox pis təsir edir. Polkovnik-leytenant deyir: "Səni vuran snayperdən qisasını alacağam, rahat uyu". Beləcə Həmdəm Ağayev oktyabrın 4-də döyüşçülərini təhlükəsiz yerə göndərir. Hər iki ayağında qəlpə yarası olan komandir yaralarını sarıyaraq, düşmənin istehkamına doğru gedir. Təkbaşına hücum edən igid zabitimiz yaralı halda iki gün döyüşür. Sonuncu dəfə qardaşı onunla oktyabrın 5-i əlaqə saxlayır. Lakin o, yaxınlarına heç nə bildirmir. Polkovnik-leytenant Həmdəm Ağayev oktyabrın 9-da Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndinin yaxınlığında qanitirmədən şəhidlik zirvəsinə ucalıb. Onun nəşini 20 gün sonra - oktyabrın 29-da götürmək mümkün olub. O, II Şəhidlər Xiyabanında dəfn olunub.

Şəhid polkovnik-leytenant evli idi, onun Aysu adlı qızı, Ziya adlı oğlu var. Anası Roza Ağayeva deyir: "İki-üç gün sonra bildim ki, o gedib, bilməmişəm. Dediyindən dönən deyildi, çox vətənpərvər idi. Bayraq üçün, torpaq üçün hər an canını verməyə hazır idi". Böyük qardaşı polkovnik-leytenant Mübariz Ağayev isə bildirir ki, Həmdəmlə sonuncu dəfə oktyabın 5-i əlaqə yaratmaq mümkün olub. Həmin vaxt çox gərgin döyüşlər gedirdi. Mən zəng etmişdim. Sən demə, yaralı imiş, ancaq mənə bir az halsız olduğunu dedi. Yaralanmasına baxmayaraq, qanının son damlasına qədər vuruşub, düşmənin xeyli sayda qüvvəsini məhv edib". Həyat yoldaşı Ramilə Ağayeva Həmdəmin sanki hərbçi olmaq üçün doğulduğunu deyir. Vətəninə çox bağlı biri idi. Hərbçi formasını o qədər qürurla daşıyırdı ki... Qəhrəmanımızın övladları isə onu heç vaxt unutmayacaqlarını və daim yolunu gözləyəcəklərini deyirlər.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Həmdəm Ağayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, həmçinin "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Ağayev Ramiz İmamverdi oğlu

Vətən müharibəsidə igidlik göstərən daha bir qəhrəmanımız şəhid Ağayev Ramiz İmamverdi oğlu 25 iyul 1993-cu ildə Bakı şəhəri, Biləcəri qəsəbəsində dünyaya gəlib. 1999-cu ildə Binəqədi rayonu Biləcəri qəsəbəsinin 301 saylı tam orta məktəbin 1-ci sinfinə gedib, 2010-cu ildə təhsilini başa vurub. 2011-ci ilin iyulunda Bakı şəhər, Binəqədi rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılıb. O, Daxili Qoşunların "N" saylı hərbi hissəsində əsgər kimi xidmət edib. Əsgər kimi öz öhdəsinə düşən vəzifələri vaxtında və dəqiq yerinə yetirən Ramiz çavuş hazırlığı kursuna göndərilib. Kursu müvəffəqiyyətlə bitirdikdən sonra hərbi xidmətini çavuş kimi davam etdirib.

Xidmət dövrünün 7 ilini paytaxtdakı hərbi hissələrdən birində, qalan 3 ilini isə Daxili Qoşunların bölgələrdə yerləşən hərbi hissələrində keçirib. O, seçdiyi peşənin çətinliyinə baxmayaraq işi ilə fəxr edirdi. Çavuşu Ramiz Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmək üçün Kəlbəcər istiqamətindən döyüşlərə qatılır. Murov yüksəkliklərinin düşməndən azad olunmasında xüsusi fədakarlığı ilə seçilir.



Ramiz daha sonra Füzuli uğrunda gedən ağır döyüşlərdə iştirak edir. Düşmənin xeyli canlı qüvvəsini məhv edən qəhrəmanımız boğaz və çiyin nahiyəsindən yaralanır. Yaralı olmasına baxmayaraq, döyüş yoldaşlarını tək buraxmır, onlarla birlikdə irəliləyir. Lakin yaraları ağır olduğundan onu hospitala yerləşdirirlər. Bir müddət orada müalicə alan qəhrəmanımız yenidən döyüşlərə qayıtmaq istədiyini deyir. Lakin ona burada qalıb yaralarının tam sağaltmalı olduğunu bildirirlər. Bütün təhkidlərə baxmayaraq Ramiz dostlarının və şəhid yoldaşlarının qisasını almaq, ən əsası, işğal altında olan torpaqlarımızı azad etmək üçün yenidən ön xəttə qayıdır, Şuşanın azadlığı uğrunda döyüşə atılıb. Həmin döyüşdə Ramiz və əsgər yoldaşları Şuşa qalasına nəzarəti ələ keçiriblər. Ertəsi gün noyabrın 7-də ermənilər tərəfindən atılan artileriya mərmisinin qəlpəsi Ramizin ürəyinə sancılıb və o şəhid olub. II Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Şəhidimiz subay idi, onun 1 qardaş, 1 bacısı var.

Qardaşı Ramil Ağayev deyir ki, Ramiz 2020-ci sentyabrın sonundan xüsusi təyinatlı kimi döyüşlərin öndə gedənlərindən olub: "Qardaşım 3 döyüşdə iştirak edib. Murov döyüşündə, Füzuli döyüşlərində iştirak edib. Daha sonra Füzulinin işğaldan azadlığı uğrunda gedən döyüşlərdə yaralanıb, Şirvan Xəstəxanasına gətirilib. Üç güllə yarası almışdı: ikisi çiynindən, biri boğaz nahiyyəsindən. Sonra qardaşım yaralı ola-ola irəli getmək istəyib, amma maşında yer olmayıb. Bəlkə də, Allah da getməsini istəməyib. Sonra isə yəqin, Allah da görüb ki, bu adam döyüşmək, şəhid olmaq istəyir".

İgidliyi ilə adını vətən tariximizin şanlı səhifəsinə əbədi yazan çavuş Ağayev Ramiz İmamverdi oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Hazırladı: Ramil Hikmət**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2023

## BENQAZİ

Benqazi əhali sıxlığına görə Liviyanın ikinci, ərazi baxımından isə tarixi Kirenaika vilayətinin ən böyük şəhəridir və Aralıq dənizində Sidra körfəzinin əsas dəniz limanıdır. Şəhərin indiki yerində ilk dəfə e.ə. V əsrdə yunanlar tərəfindən Esperidlər adında "günəşin batdığı yer" mənasını verən koloniya salınmışdır. Esperidlər Pentapolisin, yəni Kirenaikanın beş əsas şəhərindən biri idi. Esperidlərin adı ilk dəfə Herodot tərəfindən Kirenaikanın digər əsas şəhərlərindən olan Bərqdəki üsyan və farsların Kirenaikaya səfəri haqqındakı yazılarında çəkilir. Bir çox arxeoloji faktlar onu göstərir ki, şəhər bəzi dövrlərdə müstəqil və ya özünüidarəetmə hüququna malik olub. Şəhərdən tapılan ən qədim sikkələrin eyni dövrə aid Kirenaika sikkələrindən fərqli olması bunu deməyə əsas verir.



Şəhərin yerləşdiyi mövqe və Liviya tayfaları ilə sərhəddə yerləşməsi buraya hücumlara səbəb olmuşdur. Belə hücümlardan biri e.ə. 414-cü ildə qədim yunan tarixçisi Fukidid tərəfindən qeyd edilir və deyilir ki, Esperidləri Spartalı komandir Gilippus xilas etmişdir. Kirenaika Makedoniyalı İskəndərin imperiyasının, daha sonra isə Ptolemey Krallığının bir hissəsi olmuşdur. Şəhərə e.ə. III əsrdə Ptolemey hökmdarı III Ptolemeyin həyat yoldaşının şərəfinə Berenis adı verilmişdir.

Kirenaika e.ə. 96-cı ildə Ptolemey hökmdarı Apion Ptolemeyin vəsiyyətinə uyğun olaraq Roma vilayətinə çevrilmişdir. E.ə. 20-ci illərdə şəhər Krit və Kirenaikanın senator əyalətinə daxil edilmişdir. Bir neçə əsr sonra Roma imperatoru Diokletianın inzibati islahatına əsasən, Kirenaika vilayəti aşağı və yuxarı olmaqla iki hissəyə bölündü. Berenis Roma hakimiyyəti altında çiçəklənmiş və III əsrdən sonra Kirenaikanın mərkəzi şəhəri olmuşdur.

431-ci ildə Kirenaika da daxil olmaqla bütün Liviya Vandallar tərəfindən işğal edilmiş və dağıdılmışdır. VI əsrdə Berenis bir müddət Bizansın hakimiyyəti altına düşmüş, I Yustiniyanın əmri ilə şəhərdə divarlar və hamamlar yenidən tikilmişdir. Daha sonra imperator Mavrikinin dövründə Kirenaika Misir əyalətinə daxil edilmişdir. Zamanla bölgəyə ümumi nəzarətin zəifləməsi, mütəmadi baş qaldıran bərbər üsyanları bir zamanlar çiçəklənən şəhəri tənəzzülə apardı. Nəticədə şəhər tamamilə unudulmuş bir yerə çevrildi.

VII əsrin ortalarında ərəblərin Şimali Afrika boyunca yürüşü nəticəsində bu ərazilər müqavimət göstərilmədən fəth edildi. Bu dövrdə Bizansın heç bir dəstək göstərməməsi ərəbələrin işini dahada asanlaşdırdı. Ərəblər 642-ci ildə İsgəndəriyyəni tutmaqla Misirə hakim oldular, elə həmin ildə də Kirenaika müqavimət göstərmədən tutuldu. Bununla da, bu ərazilər həmişəlik müsəlmanların əlinə keçdi. İslamın bu ərazilərə gəldiyi dövrdə Berenis xarabalıqlar içində kiçik bir qəsəbə idi. Ərəblər dövründə şəhər uzun müddət Barnik adlandı.

XIII əsrdən etibarən qəsəbə Genuya tacirləri ilə yerli tayfalar arasında artan ticarətdə mühüm rol oynamağa başladı. 1450-ci ildə Misuratdan olan ərəb tacirləri xarabalıqlar arasında güclü şəhər saldılar və ona ərəb sərkərdəsi Sidi bən Qazinin şərəfinə Bəniqazi adını verdilər.

1578-ci ildə Benqazi Osmanlılar tərəfindən tutuldu. Bu dövrdə şəhər Tripolidən idarə olunurdu. 1711-1835-ci illərdə şəhər Qaramanlılar sülaləsində olan paşalar tərəfindən idarə olunmuşdur. 1835-1911-ci illərdə isə birbaşa Osmanlı imperiyasının nəzarəti altına keçmişdir. Benqazi Osmanlının ən kasıb şəhərlərindən olmuşdur. Bərbad hala düşmüş yollar, rabitənin olmaması, körfəzin dəniz çöküntüsü ilə tıxanması gəmi hərəkətini çətinləşdirmişdi ki, bu da bir liman şəhəri üçün arzuolunmaz hal idi. Acınacaqlı həyat şəraiti şəhər əhalisinin vəziyyətini çətinləşdirmiş, 1858 və 1874-cü illərdə Benqazi "bubon taunu" ilə viran qalmışdır.

1911-ci ildə Benqazi italyanlar tərəfindən işğal edildi. Kirenaikanın yerli əhalisinin təxminən yarısı Ömər Muxtarın rəhbərliyi altında italyan işğalına müqavimət göstərdi. 1930-cu illərin əvvəllərində üsyan başa çatdı və cavab olaraq bir neçə yerli tayfaya qarşı kütləvi repressiyalar həyata keçirildi. Nəticədə İtaliyanın burada koloniyası yaradıldı. Şəhərin qubernatoru İtalo Balbonun tabeliyində olan italyanlar sakitləşdirici siyasətlə yerli əhalini assimilyasiyasına başladılar. Bundan əlavə, Kirenaikaya 20.000-dən çox italyan köçürüldü. 1930-cu illərin sonlarında Benqazi əhalisinin 35 faizindən çoxunu italyanlar təşkil edirdi.

1930-cu illərin ikinci yarısında Kirenaikada və əsasən də Benqazidə böyük iqtisadi inkişaf baş verdi. Benqazi yeni hava limanı, yeni dəmir yolu stansiyası, yeni dəniz təyyarəsi stansiyası, genişləndirilmiş limanı və bir çox obyektləri ilə müasir şəhərə çevrildi. Benqazi 1940-cı ildə Tripoliyə yeni dəmir yolu ilə bağlanacaqdı, lakin həmin ilin yayında italyanlarla ingilislər arasında baş verən müharibə layihəni yarımçıq saxladı.

İkinci Dünya müharibəsində Benqazi bir neçə dəfə gah bu, gah da digər tərəfin ordusu tərəfindən ələ keçirilmişdi. 6 fevral 1941-ci ildə "Kompas əməliyyatı" zamanı şəhər britaniyalı polkovnik-leytenant Con Kombun əmrində olan Britaniya ordusunun xüsusi hərbi dəstəsi tərəfindən italyanlardan alındı. Aprelin 4-də isə Alman Afrika Korpusunun generalı Ervin Rommel başda olmaqla "Ox dövlətləri" tərəfindən ələ keçirildi. Yalnız 1942-ci ilin 24 dekabrında ingilislər tərəfindən həyata keçirilən "Şimali Afrika əməliyyatı" nəticəsində yenidən ingilislər tərəfindən tutuldu. İkinci Dünya müharibəsində şəhər bir neçə dəfə yenidən işğallara məruz qaldı. Ağır bombardmanlar nəticəsində Benqazi, demək olar ki, dağıdıldı. Lakin sonralar ölkə ərazində neft yataqlarının tapılması və neftdən gələn gəlirlər Liviyanın digər əraziləri kimi Benqazinin də inkişafına səbəb oldu.

1949-cu il martın 1-də Benqazidə Böyük Britaniyanın dəstəyi ilə Kirenaika Əmirliyi yaradıldı. Benqazidə keçirilən "milli konfransda" özünü Kirenaika əmiri elan edən Əmir İdris Sənusi müstəqil dövlət qurduğunu bəyan etdi. İngiltərə və Fransa 21 noyabr 1949-cu ildə qəbul edilmiş qətnamə ilə öz tabeliyində olan Tripolitaniya və Fəzzan ərazilərini yeni qurulan krallığa təhvil verməklə vahid Liviya Krallığının müstəqilliyini tanıdılar. Nəhayət, 24 dekabr 1951-ci ildə Liviya Krallığının müstəqilliyi elan edildi və dekabrın 27-də Əmir İdris bu dəfə də kral I İdris olaraq yeni qurulan dövlətin də taxtına oturdu. Krallığın mərkəzi isə Benqazi şəhəri oldu.

1969-cu ildə Müəmmər Qəddafinin rəhbərliyi altında "Azad Zabitlər" dövlət çevrilişi etdikdən sonra Benqazi paytaxt statusunu itirdi, bundan sonra bütün dövlət qurumları Tripolidə cəmləşdi. Sənusi sülaləsi isə Kirenaikada mövqeyini qorumağı bacardı. 15 aprel 1986-cı ildə Liviyanın ABŞ-a yönəldilmiş terrora görə məsuliyyət daşıdığını iddia edərək ABŞ Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrinin təyyarələri Benqazi və Tripolini bombalamışdır. 2011-ci ilin fevralında Benqazidə Qəddafi əleyhinə dinc etirazlar başlamışdır.

Liviyanın digər şəhərlərində olduğu kimi, Benqazidə də kifayət qədər etnik və dini müxtəliflik var. Bu şəhər də daxil olmaqla, Şərqi Liviyanın əhalisinin əksəriyyəti ərəb mənşəlidir. Lakin son dövrlərdə Benqaziyə afrikalı mühacirlərin axını müşahidə olunur. Şəhərdə çoxlu misirli mühacir və kiçik yunan icması da mövcuddur. Əhalisinin əksəriyyətini sünni müsəlmanlar təşkil edir. Burada müsəlmanların ibadəti üçün tarixi məscidlər mövcuddur. Bu məscidlərin ən məşhuru XVI əsrdə tikilən və şəhərin ən qədim məscidi hesab edilən Atik məscididir. Onun ilkin binası 1577-ci ildə Şeyx Əbd əs-Sami əl-Qadi tərəfindən tikilmişdir. Osmanlı dövründə məsciddə bir çox yenidənqurma işləri aparılmışdır. XX əsrin 70-ci illərində məscidin yenidən qurulması üçün əsaslı təmir işləri aparılmışdır. Nəticədə Şeyx Əbd əs-Sami əl-Qadinin qalıqları eksqumasiya edilərək məsciddən kənarda basdırılmışdır. Bundan əlavə, köhnə minarə sökülərək yenisi tikilmişdir. "Əl-Cami əl-Kəbir" ("Böyük məscid") kimi tanınan məscid Azadlıq meydanının şimalında inşa edilmişdir. Məscid Osmanlı memarlığı üslubunda tikilmişdir. Bundan başqa, şəhərdə Əkrəm ibn Əbu əl-Əkrəm, Bilal ibn Rubah əl-Həbəşi, əl-Buxari, Albadria məscidləri fəaliyyət göstərir.

Benqazi 2023-cü ildə İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

**Hazırladı: Tural Vəlizadə**

# "PORŞE" KLASSİK MODELİN REKLAMINDAN MƏSİHİN TƏSVİRİNİ SİLDİYİNƏ GÖRƏ ÜZR İSTƏYİB

"christiantoday" və "christianpost"-un yaydığı məlumata görə, avtomobil nəhəngi "Porşe" klassik modelin reklamından Məsihin şəklini sildiyinə görə üzr istəməli olub. Bu, istifadəçilər redaktorların Lissabondakı məşhur heykəli aeroqrafika ilə silib, postamenti boş qoyduğunun fərqinə vardıqdan sonra baş verib.

Reklam çarxı Portuqaliyanın paytaxtındakı məşhur Məsih heykəlinin fonunda çəkilib. Reklamda 60 illik tarixə malik, qırmızı "Porşe 911" klassik modeli Tagus çayının sahilləri ilə sürətlə irəliləyir, arxa planda isə məşhur heykəlin boş postamentini aydın şəkildə görmək olur.

Ehtimal olunur ki, ənənəvi təriflə yanaşı, antireklamın alıcıları daha effektiv cəlb etdiyini yaxşı bilərək, şirkət özü qəsdən qalmaqala səbəb olub.

"X" sosial şəbəkəsində (keçmiş "Twitter") dərhal narazılıq dalğası baş qaldırıb. "Porşe", görünür, xristianların onun avtomobillərini almasını istəmir", - deyə istifadəçilər qeyd ediblər. "Porşe" isə öz növbəsində şəxsi YouTube səhifəsindəki şərhində "göstərilmiş hər bir təhqirə" görə peşmançılığını bildirərək üzr istəyib, ancaq heykəlin videodan necə yoxa çıxması ilə bağlı heç bir izahat verməyib. Şirkət İsa Məsihin məşhur heykəlinin klassik 911-in 60 illiyi reklamından səhvən çıxarıldığını iddia edir.

Qeyd edək ki, Hökmdar Məsih heykəli Portuqaliyanın ən böyük abidəsi hesab olunur. O, uzadılmış qolları ilə İsanın obrazını təmsil edir, hündürlüyü 83 metrə çatır, Lissabon və ətraf ərazilərin, demək olar ki, bütün nöqtələrindən görünür. Heykəlin yaradıcıları Braziliyanın məşhur abidəsi - Xilaskar Məsihin heykəlindən ilhamlanıblar. Onu İkinci Dünya müharibəsindən sonra, 1950-ci illərdə Portuqaliya katolik yepiskoplarının xeyir-duası ilə ucaldıblar. Bundan başqa, Lissabon bir çox qədim kilsələri, ziyarətgahları, simvolları və Pireney yarımadasında Mavritaniya hakimiyyəti zamanı tikilmiş kafedralı ilə məşhurdur.

# BAPTİZM

Yunan dilindən tərcümədə "suya batırmaq, suda vəftiz etmək" mənasını ifadə edən baptizmin meydana gəlməsi konkret bir ölkə ilə əlaqədar olmamışdır. Baptizmin yaranması prosesi Hollandiyada başlamış, İngiltərədə isə başa çatmışdır. Baptistlər öz tarixlərinin Yəhya peyğəmbər və İsa Məsihin dövründən başladığını iddia etsələr də, tarixi qaynaqlar onun XVII əsrin əvvəllərində ortaya çıxdığını təsbit edir. Baptistlərin ilk icmasının əsası 1609-cu ildə Amsterdamda qoyulmuşdur. Onun üzvləri özlərini bu vaxt baptist adlandırmasa da yeni dini cərəyanın bünövrəsini qoymuşlar. Yetkin insanın şüurlu şəkildə öz etiqadını müstəqil müəyyənləşdirməsi və vəftiz edilməsi ideyalarını müdafiə etmişlər. Onlar siyasi əqidələrinə görə təqib edildiyindən İngiltərədən Hollandiyaya köç etmiş kalvinçi immiqrantlar idi. 1606-cı ildə İngiltərədə kilsə əleyhinə yönəlmiş hərəkat nəticəsində ölkəni tərk etməli olan kalvinçilər Hollandiyada müstəqil iki qrup kimi fəaliyyətlərini davam etdirmişlər. Con Robinsonun başçılıq etdiyi qrup Hollandiyanın Leyden şəhərinə, digər qrupa rəhbərlik edən Con Smit (1570-1612) isə Amsterdam şəhərinə sığınmış və orada müstəqil kilsələrini quraraq fəaliyyət göstərmişlər.

1612-ci ildə İngiltərədə dini təqiblərə son qoyulduqdan sonra Con Smitin yaxın tərəfdaşları olan Tomas Helvis və Con Mertonun başçılığı ilə vətənə dönən Amsterdamdakı kalvinçilər Londonda İngiltərədəki ilk baptist icmasını təsis etdilər. Məhz İngiltərədə onlar özlərini baptistlər adlandırmışlar. Con Smit yeni dini cərəyanın qurucusu hesab edilir.

Hazırda dünyada ən böyük protestant konfessiyası sayılan baptizm, təxminən 100 milyondan artıq insanı birləşdirir. Onların təqribən səksən faizi ABŞ-da məskunlaşmışdır. Dünyada mövcud olan baptist kilsələri Ümumdünya Baptist İttifaqında birləşmişlər. İttifaq 1905-ci ildə Londonda təsis edilmişdir. Dünyanın demək olar ki, bütün bölgələrini əhatə edən 214 baptist icması bu ittifaqda birləşmişdir. İttifaqın aparıcı strukturu olan Ümumdünya Şurası Vaşinqtonda yerləşir.

## Baptizmdə Tanrı inancı

Baptizmdə tarixən iki axın mövcud olmuşdur: ümumi və xüsusi. Onlar bir-birindən vəftiz məfhumunun mahiyyətini fərqli dərk etdikləri üçün seçilirlər. Ümumi baptistlərə görə, İsa Məsih insanlar arasında fərq qoymadan hər kəsin günahını təmizləmişdir. Xüsusi baptistlər isə İsanın əvvəlcədən seçilmiş bir sıra insanın günahlarını təmizlədiyini qəbul edirlər. Con Smit ümumi baptist icmasının qurucusu hesab olunur. İlk xüsusi icma isə 1638-ci ildə İngiltərənin Sosverq şəhərində meydana gəlmişdir.

Baptistlərə görə, Tanrı təkdir, o bir ruhdur, diridir, hər şeyə qadir, əbədi, müqəddəs və ədalətlidir. Katolik, pravoslav, lüteran və digər xristian təriqətlərindən fərqli olaraq, baptistlər Tanrının yalnız ruhani təbiətə malik olduğunu bildirərək, onun insan qismində nə vaxtsa zühurunu qəbul etmirlər. Tanrının hansısa formada surətinin təsvir edilməsinə etiraz edirlər. Əgər katolik və provaslav kilsələrində Ata Tanrının təsvirlərini tavan və divarlarda görmək mümkündürsə, baptistlər bunu ümumiyyətlə qəbul etmirlər.

Baptistlər təslis, yəni üçlük inancını Ata Tanrı, Oğul Tanrı və Müqəddəs Ruh Tanrısını qəbul edirlər. Onlara görə, Müqəddəs Ruh insanın inancında böyük rol oynayır. Müqəddəs Ruh insana açılmadan insanda imana olan istək meydana gəlməz. Baptistlər bu səbəbdən Müqəddəs Ruha böyük əhəmiyyət verirlər.

Baptistlər Tanrı mövzusunda digər xristianlardan fərqli fikirdədirlər. Belə ki, xristian icmaların əqidəsinə görə, bəndə cəzalanmalıdırsa, Tanrı onu harada olursa-olsun cəzalandıracaq. Tanrı ilahi şəxsiyyət kimi aşkar yerdədir. Baptistlər də tanrının istədiyi vaxt və yerdə insanı cəzalandıra bilmək qabiliyyətinə malik olması ideyasını qəbul edirlər. Lakin onlar Tanrını laməkan sayırlar.

## Vəftiz (xaç suyuna çəkilmə) ayini

Vəftiz baptistlərin ən çox diqqət yetirdikləri dini ayinlərdən biridir. Vəftizin həyata keçirilməsi baptizmin ortaya çıxmasında böyük rol oynamış səbəblərdən biri kimi qəbul edilir. Çünki "baptizm" adı "vəftiz" kəlməsindən meydana gəlib. Baptistləri digər xristian məzhəblərindən fərqləndirən əsas əlamətlərdən biri vəftiz dini ayini ilə bağlıdır.

Baptistlərə görə, uşaqları vəftiz etmək şüursuz varlıqları suya salıb çıxartmaq kimidir. Onlar uşaqların vəftiz edilməsini qəbul etmirlər. Xristian günahlarının bağışlanması üçün əvvəlcə İsa Məsihin, bütün insanlığın günahlarının bağışlanması üçün özünü qurban etdiyinə inanmalı və sonra vəftiz olunmalıdır.

Baptistlər kiminsə vəftiz olunmadan kilsəyə üzv olunmasını qəbul etmirlər. Onlar, eyni zamanda, vəftizin Allah ilə insan arasında bir əhd olduğuna inanırlar.

## Baptistlikdə axirət inancı

Baptistlər ölümdən sonrakı axirət həyatını qəbul edirlər. Onların inanclarına görə, iki – dünya (müvəqqəti) və ilahi (daimi) həyat mövcuddur. Dünya həyatı qəmqüssəli, əzablı həyatdır. Onun yeganə müsbət işi, bəşəriyyətdə Tanrıya məhəbbət hissi oyatmaqdır. Ölən kimsə İsa Məsihin bəşəriyyətin günahlarının bağışlanması üçün öldüyünə inanmışdırsa, axirətdə əbədi yaşayacaqdır. Bu inancı qəbul etməyənlər isə əbədi cəzalandırılacaqlar. Əslində, Allahın heç kimi cəzalandırmaq istəmədiyinə inanan baptistlər bu cəzaya layiq görülən insanların özlərini günahkar hesab edirlər. Yaşamağın əsas məqsədi axirət həyatını qazanmaqdan ibarət olduğunu qəbul edən baptistlər dünya həyatını dəyərsiz və fani sayırlar. Baptistlərə görə, Cənnət – istirahət, Cəhənnəm isə - vicdanın əzab çəkdiyi yerdir.

## Baptistlərdə ibadət

Baptistlərin ibadətlərində dualar mühüm yer tutur. Onların inanclarına görə, Allaha yaxın olmanın ən qısa yolu duadan keçir. İnsan bütün həyatı boyu dua etməlidir ki, Allah da onun dualarını qəbul etsin. Baptistlərdə dua iki cür edilir: birincisi, camaatla birlikdə edilən dua, ikincisi isə fərdi duadır. Camaatla edilən dua həftədə iki-üç dəfə müəyyən günlərdə yerinə yetirilir. Fərdi duanı isə hər zaman və hər yerdə etmək olar.

## Baptistlər Azərbaycanda

Baptistlik XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda yayılmağa başlayıb. 1894-cü ilin sentyabrında çar II Nikolay baptistlərin dövlətçilik üçün təhlükəli olduğunu əsas gətirərək onların ətraf bölgələrə, xüsusən də Qafqaza və Azərbaycana sürgün edilməsi haqda qərar qəbul edib. Həmin vaxt sürgün edilənlər əsasən Tərtər, Şuşa və digər rayonlarda məskunlaşmışlar. 1899-cu ildə onlar Bakıda böyük Baptist icmasını və dua evini qurmağa nail olmuşlar.

1911-ci ildə Bakı şəhərində "Şəfəq" kinoteatrının yanında yeni baptist kilsəsi inşa olunmuşdur. Azərbaycanda sovet rejimi qurulandan sonra da baptistlər burada fəaliyyətlərini davam etdirmişlər. Belə ki, 1956-cı ildə yeni dua evi ucaldılmışdır.

Hazırda Gəncə, Sumqayıt, Şirvan, Zaqatala və s. daxil olmaqla, ölkəmizin 18 regionunda Baptist icmaları fəaliyyət göstərir. Bakıdakı baptist kilsəsində ibadət bazar günləri həyata keçirilir. İbadət saat 10-dan 12-yə qədər rus, 13-dən 15-ə qədər isə Azərbaycan dilində aparılır. Azərbaycan dilində keçirilən ibadətdə təqribən üç yüz, rus dilində isə iki yüz insan iştirak edir. Həftənin çərşənbə axşamı və cümə axşamları da müvafiq olaraq, "dua saatı" və "gənclər saatı" təşkil edilir.

## Əsas xüsusiyyətləri

Baptizm ideologiyasının mərkəzində məsihçilik dayanır. Baptistlər İsanın Allahın özü olduğuna inanmaqla yanaşı, Tanrının insan bədəninə girərək İsa adı ilə bəşəriyyəti günahlardan qurtarmaq üçün gəldiyini qəbul edirlər. İsa onların əqidə və ehkamlarında mənbə rolunu oynayır. O, xilas, həqiqət və həyat yoludur. Aktiv missioner fəaliyyət göstərmələrinin səbəbi baptistlərdə İsanın bəşəriyyəti xilas etmək üçün özünü qurban etməsindən doğan sevinc hissinin daha yüksək olması ilə izah olunur.

Baptistlərə xas digər mühüm xüsusiyyət onların kilsə haqqında düşüncələridir. Onlara görə, kilsə Tanrı tərəfindən xüsusi mənəvi imtiyazlar verilmiş, mükəmməl insanların məkanıdır. Kilsə, hər hansı məbəd binası, ilahi firavanlığın təmsilçisi deyil, hər şeydən öncə "dirilmiş ruhlar"ın toplandığı yerdir. Baptistlər ikona, xaç simvolu və əksər kilsə ayinlərini qəbul etmirlər.

Lakin baptistləri digər icmalardan fərqləndirən ən mühüm xüsusiyyət onların etiqadında Bibliyanın çox əhəmiyyətli yer tutmasıdır. İcma üzvləri bunun səbəbini Bibliyanın İsa Məsih vasitəsilə xilas olmağın və Tanrı ilə barışmağın mümkünlüyünə şahidlik etməsilə izah edirlər. Baptistlər inanclarında yalnız Müqəddəs Yazıların hökmlərinə əsaslanırlar.

Spirtli içkilər, narkotik maddələrin qəbulu, papiros çəkmək, əxlaqsızlıq və dələduzluqdan xilas olmaq təbliğ edilir. Belə mənfi vərdişlər ruhun xilas olması üçün ciddi maneədir. Onlardan xilas olmayan insan böyük günah sahibidir və Cənnətə düşmək şansını itirir.

*"Cəmiyyət və Din"*

# QƏDİM DÜNYANIN ƏN BÖYÜK SİNAQOQUNDA BƏRPA İŞLƏRİ APARILIR

"Arkeonews" xəbər verir ki, əfsanəvi var-dövləti ilə məşhur olan Kral Krezin bir vaxtlar hökmranlıq etdiyi qədim Sardis şəhərində yerləşən, qədim dünyanın ən böyük sinaqoqunda bərpa işləri aparılır. Arxeoloqlarla yanaşı, sadə kənd qadınları da bərpa işlərində iştirak edirlər.

Manisa əyalətinin qərbindəki Salihli mahalının Sart bölgəsində yerləşən qədim şəhər keçmişdə Lidiya krallığının paytaxtı olub. Sardis eramızdan əvvəl 1200-cü ilə qədər gedib çıxan uzun bir tarixə malikdir. Şəhər yaxınlıqdakı dağlardan yuyulmuş qızıl dənələrini daşıyan Paktolus çayının yaxınlığında salınmışdır.

Sardis Anadolu xalqı olan lidiyalıların əsas şəhəri və paytaxtı idi. Lidiya hökmdarları Gigis, Alyattis və Krez inanılmaz dərəcədə varlı olmuş və eramızdan əvvəl VII-VI əsrlərdə güclü bir imperiya yaratmışlar. Krezin məğlubiyyətindən sonra Sardis fars valisinin iqamətgahı və ən mühüm şəhərlərindən biri kimi Fars İmperiyasının tərkibinə qatılmışdır. Şəhər Makedoniyalı İskəndər tərəfindən fəth edilmiş və ölümündən sonra Selevki hökmdarının iqamətgahına çevrilmişdir. Sardis eramızdan əvvəl 133-cü ildə Roma imperiyasının tərkibinə daxil edilmiş, Lidiya Roma vilayətinin inzibati mərkəzinə və Roma prokonsulunun iqamətgahına çevrilmişdir.

Monumental sinaqoq son Roma dövründə Sardisdə yəhudi dini həyatının mərkəzi idi. 1962-ci ildə kəşf edilmiş bina və onun dekorasiyası qismən bərpa olunmuşdur. Dini turizm üçün əhəmiyyətli bir məkan olan sinaqoq indi turistlərin üzünə açıqdır və döşəmə mozaikaları orijinala uyğunlaşdırılaraq bərpa edilmişdir.

Sinaqoqda yan tərəflərində qartallar olan və aslanlar tərəfindən qorunan masa var, o, təkrar emal edilmiş materiallardan hazırlanmış və Tövrat mətnlərini oxumaq üçün istifadə edilmişdir. Sardis şəhərinin sinaqoquna şərq tərəfdən, sütunlu ön həyətdən daxil olmaq olardı. Qabaq həyət yan tərəflərdən dam örtüyü ilə örtülsə də, mərkəzi hissəsi açıq idi. Onun arxasında 50 metrdən çox uzunluğu olan, minə yaxın adamın yerləşdiyi əsas zal var. Döşəmədən təxminən 14 m hündürlükdə olan əsas zalın damını nəhəng daş sütunlar tuturdu.

Sinaqoqda müxtəlif vaxtlarda mozaika döşəmələri, mebel və mərmər divar bəzəkləri quraşdırılmışdır; salamat qalanların əksəriyyəti IV-V əsrlərə aiddir. Sinaqoq VII əsrin əvvəllərində zəlzələdən sonra şəhərin qalan hissəsi ilə birlikdə tərk edilmişdir.

# AZƏRBAYCANDAKI DİNİ KONFESSİYA RƏHBƏRLƏRİ LAÇIN YOLUNDAKI VƏZİYYƏTLƏ BAĞLI BİRGƏ BƏYANAT YAYIBLAR

Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış suveren ərazisi olan Laçın-Xankəndi yolunda Ermənistanın süni şəkildə yaratdığı növbəti təxribatçı tamaşa – "TIR şousu" ətrafında gedən qərəzli fikirlərlə bağlı birgə bəyanat yayıblar.

"Hər şeydən əvvəl bildiririk ki, müzakirə olunan mövzu dini səciyyə daşımasa da, Qafqaz bölgəsində sülhün bərqərar olmasını arzu edən hər bir şəxs və bu yolda böyük səylər göstərən din xadimləri kimi bizim ümdə vəzifəmiz baş verənlərə haqq və ədalət meyarları ilə yanaşmaqdır. Həqiqət ondan ibarətdir ki, Ermənistan tərəfindən "humanitar yardım" adı ilə TIR yük maşınlarının "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinə yönəldilməsi öncədən düşünülmüş və beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə törədilmiş anti-Azərbaycan təxribat kampaniyasının tərkib hissəsidir. Dəfələrlə Azərbaycanın dövlət orqanları Xankəndidə yaşayan Qarabağ bölgəsinin yerli erməni sakinlərini müzakirəyə dəvət etmiş, lakin Ermənistan bununla razılaşmamış, Azərbaycanın humanist təkliflərinə rədd cavabı vermişdir. TIR-ların qəsdən Azərbaycanın "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi istiqamətində problem yaratması, hadisənin "etnik təmizləmə siyasəti" və "humanitar böhran" kimi qələmə verilməsi erməni tərəfinin müntəzəm olaraq həqiqətləri təhrif etmək xislətinin növbəti təzahürüdür.

Birmənalı şəkildə bildiririk ki, Ermənistanın "etnik təmizləmə siyasəti" barədə yaydığı məlumatlar yalan və böhtan xarakteri daşıyır. Beynəlxalq ictimaiyyət unutmamalıdır ki, 30 ilə yaxın müddət ərzində məhz erməni ekstremistlərin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz əzəli dədə-baba torpaqlarını tərk etməyə məcbur qalaraq qaçqın və məcburi köçkün həyatını yaşamışdır. Məhz Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı işğal olunmuş ərazilərimizdə məscidlər, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr dağıdılıb talan edilib, Qafqaz Albaniyasına məxsus xristian kilsələri və rus pravoslav kilsələri qriqorianlaşdırılıb, məscidlərdə İslam dinində haram sayılan heyvanlar saxlanılaraq bütün İslam dünyasına həqarət olunub. Müharibənin bitməsinə baxmayaraq hələ də yüzlərlə vətəndaşımız mina partlayışlarında həyatını itirməkdə və əlil olmaqdadır ki, həmin minalar Ermənistan tərəfindən bilavasitə Laçın yolu vasitəsilə Azərbaycan ərazilərinə daşınıb.

Azərbaycan xalqı öz dövlət başçısının rəhbərliyi ilə BMT və beynəlxalq hüquq tərəfindən rəsmən tanınan əzəli torpaqlarını Ermənistanın təcavüzündən xilas edərək ərazi bütövlüyünü bərpa etdi. İşğaldan azad edilmiş ərazilərdə bu gün mülki obyektlərlə yanaşı, dini-mənəvi abidələrin bərpa və yenidən qurulmasına dövlət səviyyəsində diqqət ayrılması Azərbaycanın dünyadakı tolerant imicinin, mədəniyyətlər, sivilizasiyalar, dinlər arası dialoq prosesində aparıcı mərkəzlərdən biri olmasının təsdiqidir. Hər zaman qlobal təfəkkür və bəşəri ideyaları ilə tanınan Azərbaycan Prezidenti İlham Əliyev regionun taleyini müəyyən edən, tarixini yenidən yazan öndər lider kimi bütün yüksək kürsülərdən sülh və birgəyaşayış çağırışları edir, qarşı tərəfi xalqların gələcəyi naminə siyasi təfəkkür və humanist məntiqə əsaslanan həmrəyliyə dəvət edir.

Təəssüf doğuran haldır ki, bunun müqabilində erməni revanşistləri müxtəlif beynəlxalq təşkilatların tribunalarından ölkəmiz əleyhinə yenə də iftira kampaniyaları aparır, hətta dini platformadan – xüsusilə Ümumdünya Kilsələr Şurasından öz məkrli siyasi məqsədləri üçün sui-istifadə edirlər. Erməni Apostol Kilsəsi erməni revanşizminin önündə gedir, qisas təbliğatı, beynəlxalq müstəvidə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Bir il ərzində Ümumdünya Kilsələr Şurasının Azərbaycan əleyhinə 3 bəyanatla çıxış etməsi ən azından ondan xəbər verir ki, bu silsilə təhdid kampaniyalarının təşkilində baş ideoloq kimi Ümumdünya Kilsələr Şurasının prezidentlərindən biri – Kilikiya erməni kilsəsinin başçısı I Aram, müəllif-icraçılardan isə Mərkəzi komitə sədrinin (moderator) müavini Aykazyan əsas rol oynayırlar.

Bu xüsusda Ümumdünya Kilsələr Şurasının son zamanlar mütəmadi olaraq birtərəfli və qərəzli şəkildə ermənipərəst mövqedən çıxış etməsi ciddi təəssüf doğurur. Kilsə adını daşıyan təşkilatın barışdırıcı, sülhün təmin olunmasına töhfə verən və birgəyaşayışı təbliğ edən çağırışlarla çıxış etmək əvəzinə mövcud vəziyyəti dinlərarası müstəviyə çıxararaq "xristian təəssübkeşliyi" adı altında xristian-müsəlman qarşıdurmasına təhrik edən destruktiv mövqeyi və anti-Azərbaycan təbliğatı sülhə xidmət etmək istəyən dini təsisatın məram və məqsədinə uyğun gəlmir, həmçinin dinlərin ədalət prinsiplərinə ziddir. Daha öncə Qafqaz Müsəlmanları İdarəsi adından Ümumdünya Kilsələr Şurasının Baş katibi Jerry Pillaya və Mərkəzi komitənin sədri (moderator) Dr.Heinrix Bedford-Strohma göndərilmiş məktubunda Şuranın 11-ci Assambleyasında, habelə Ümumdünya Kilsələr Şurasının Mərkəzi Komitəsinin son iclasının yekun sənədində erməni tərəfinin mənafelərinə xidmət edən bəyanatlara etiraz bildirilib və qeyd olunub ki, dünya birliyi ilə yanaşı, şəxsən Ermənistanın Baş naziri N.Paşinyanın da rəsmən etiraf etdiyi 86,6 min kvadratkilometr təşkil edən Azərbaycan ərazisində "Dağlıq Qarabağ" – "Artsax" adlı inzibati vahid yoxdur. Buna baxmayaraq, Ümumdünya Kilsələr Şurasının cari il iyulun 31-də yaydığı bəyanatında "Artsax" ifadəsini mətndə qəsdən bir neçə dəfə təkrarlayaraq, Azərbaycanın daxili işlərinə, suverenliyinə və ərazi bütövlüyünə kobud müdaxilə edib, kilsə adını daşıyan təşkilata başucalığı gətirməyən əyani hörmətsizlik nümayiş etdirib.

Birinci Qarabağ müharibəsi zamanı erməni qəsbkarları tərəfindən Azərbaycan əhalisinə qarşı törədilən soyqırımı cinayətlərinə, Xocalı qətliamına "narahatlıq" bildirməyən Kilsələr Şurasının indiki mövqeyi ikili standartlara və siyasətbazlığa söykənir. Azərbaycanın suveren ərazisi olan Naxçıvanın uzun müddətdir ki, Ermənistan tərəfindən blokadada saxlanılmasına etiraz etməyən Ümumdünya Kilsələr Şurasının indi belə canfəşanlıq etməsi beynəlxalq dini təşkilata yaraşmayan riyakarlıqdır. Biz bu kimi halları qətiyyətlə qınayır, Ermənistanı, xüsusilə də erməni Kilikiya və Eçmiədzin kilsələrini müharibə ritorikasından əl çəkməyə, millətlər arasında nifrət çağırışlarına və revanşizm ideyalarına dəstək verməməyə çağırırıq. Belə siyasət nəhayətində regionda vəziyyəti gərginləşdirəcək, özəlliklə erməni xalqına xeyir gətirməyəcəkdir.

Biz uzun illərdir ki, bir sıra Avropa dövlətlərinin, xüsusilə Afrikada və Okeaniyada soyqırımlarına, zorakılıqlara və qarşıdurmalara rəvac verən Fransanın, habelə bəzi Qərb təşkilatlarının erməni lobbisinin təsirinə düşərək qərəzli, anti-Azərbaycan mahiyyətli qərarlar verməsinin, qətnamələr qəbul etməsinin şahidiyik. Heç şübhəsiz ki, rəsmi İrəvanın, Qarabağ separatçılarının və onların Eçmiədzindən "xeyir-dua" alan tərəfdarlarının bu yeni təxribatda hədəfi - hazırda müxtəlif platformalarda davam edən Azərbaycan-Ermənistan danışıqlarını pozitiv məcradan uzaqlaşdıraraq sülh sazişinin imzalanmasını pozmaqdan, revanşizm məqsədli fəaliyyətlərini gerçəkləşdirməkdən ibarətdir. Bu proseslərdə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) regiondakı fəaliyyəti xüsusi narahatlıq doğurur. Bir müddət öncə rəsmi Bakı BQXK-nın Laçın yolu vasitəsilə qaçaqmalçılıq fəaliyyəti ilə məşğul olduğunu faktlarla sübuta yetirmiş, erməni hərbi cinayətkarların və terrorçuların sərhəddən keçirilməsində BQXK-nın bilavasitə iştirakını ifşa etmişdir.

Dinlər tarixindən bəllidir ki, bütün peyğəmbərlər, o cümlədən Həzrəti İsa əleyhissalam insanları haqqa, ədalətə, sülhə dəvət etmişlər. Biz, Azərbaycanda fəaliyyət göstərən dini konfessiya rəhbərləri bu bəyanatımızla dünya ictimaiyyətini, xüsusilə Ümumdünya Kilsələr Şurasını bölgəmizdə sülhə və əmin-amanlığa maneə olan erməni təxribatçı təbliğatına uymamağa və həqiqətlərə söykənən məlumatlara diqqət yetirməyə çağırırıq. Unutmayaq ki, din xadimlərinin əsas vəzifəsi ilahi əmrlərə riayət etmək, bəşəri sülh naminə barışdırıcı mövqedə olmaqdır".

***Şeyxülislam Allahşükür Paşazadə*** *- Qafqaz Müsəlmanları İdarəsinin sədri,*

***Milix Yevdayev*** *- Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri,*

***Arximandrit Aleksiy Nikonorov*** *- Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi,*

***Aleksandr Şarovski*** *- Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri,*

***Robert Mobili*** *- Alban-udi Xristian Dini İcmasının sədri.*

# KATOLİK KİLSƏSİNİN YUBİLEY İLİ ÜÇÜN BÖYÜK İNFRASTRUKTUR LAYİHƏSİ HAZIRLANIR

2025-ci ildə Katolik Kilsəsinin növbəti yubileyi ərəfəsində 35 milyon zəvvarın proqnozlaşdırılan axınını qəbul etmək məqsədilə şəhər rəhbərliyi böyük infrastruktur layihəsinin təqdimatını ediblər. Bu barədə "catholicnewsagency" məlumat yayıb.

"Ümid Yubileyi" üçün "əbədi şəhərə" gözlənilən 35 milyonluq zəvvar axınını təmin etmək məqsədilə geniş infrastruktur tikilir və təkmilləşdirilir. İnşaatçılar, ilk növbədə, Müqəddəs Pyotr meydanından Sant-Anjelo qəsrinə qədər zəvvarlar üçün geniş piyada yolu çəkmək niyyətindədirlər. Roma meri artıq irimiqyaslı layihəni "İtaliya ilə Vatikan arasında qucaqlaşma" adlandırıb. Vatikan Yubiley ilini elan edərkən zəvvarlar mənəvi nemətlərdən faydalanmağa, günahlardan təmizlənmək və mənəvi həzz almaq üçün Romadakı Müqəddəs Pyotr Bazilikasında Müqəddəs Qapılardan (buranı yalnız Papa açır) keçməyə can atırlar.

İnfrastruktur layihəsinin böyük hissəsi Vatikandan enən yolda "Piazza Pia"da aparılır. Yubiley ilinin internet səhifəsində verilən press-relizdə deyilir ki, "Piazza Pia" piyadaların rahat hərəkəti üçün təmir olunacaq və meydandan bir piyada yolu Sant-Anjelo ilə Vatikana aparan məşhur "Via della Consciliazione"-nu birləşdirəcək. Bu işlərin təxminən 70 milyon avroya başa gələcəyi ehtimal olunur.

Rəsmi açıqlamalara əsasən, bütövlükdə şəhər ümumi dəyəri təxminən 2 milyard dollar olan 90-a yaxın ayrı-ayrı layihəni planlaşdırır və infrastrukturun inkişafı layihələrini 2024-cü ilin Milad bayramına qədər tamamlamağı nəzərdə tutub.

Yubiley ilinin təşkilatçısı arxiyepiskop Rino Fizikella mətbuat konfransında deyib: "Hər yubiley ilində Roma gözəlləşir, cinayətkarlıq azalır, həyat yaxşılaşır. Çalışacağıq ki, qarşıdan gələn yubiley ilində də buna nail olaq. Bu təqvalı hazırlıq işləri möminlərə qədim şəhərin gözəlliklərindən dadmaq, faydalı təfəkkür və təmizlənmə halına qərq olmaq imkanı verəcək. Yubiley bizim üçün ilk növbədə hər bir möminin yaşamalı olduğu böyük mənəvi hadisədir, Müqəddəs Qapılardan təfəkkürə şərait yaradan əzəmət və gözəllik mühitinə keçmək hamımız üçün böyük və ruhlandırıcı hadisə olacaqdır".

"Ümid zəvvarları" devizi altında Yubiley ilini qeyd etmək üçün tövsiyələri əhatə edən Papa bullasının 2024-cü ilin mart ayında nəşr olunacağı gözlənilir. "Hər kəsin yeni güc və inam qazanmasına, gələcəyə açıq ruh, güvənən ürək və uzaqgörən şüurla baxmasına kömək etmək üçün bizə verilən ümid alovunu yandırmalıyıq", - deyə Papa Fransisk qarşıdan gələn Yubiley ilinə həsr olunmuş 2022-ci il mesajında bildirib: "Ona görə də yubileyin şüarı kimi "Ümid zəvvarları" sözlərini seçdim".

Yubiley ili ənənəsi katoliklərə bunu hər 50 ildə bir dəfə qeyd edən yəhudilərdən keçmişdir. Həmin il tarla işləri dayandırılır, yəhudi qullar azad edilir, girov qoyulmuş torpaqlar sahiblərinə geri qaytarılırdı. Katolik Kilsəsində Yubiley ili xəzinəni doldurmaq məqsədilə Papa VIII Bonifasi tərəfindən təsis edilmiş və ilk dəfə 1300-cü ildə Romada qeyd olunmuşdur. Onu yüz ildə bir dəfə keçirmək sözü verilmişdi. Bununla belə, bayramın parlaq nəticələri Papa VI Klementi bu müddəti əlli ilə (1343-cü ildə), Papa VI Urbanı (1389-cu ildə) 33 ilə və Papa II Paveli (il. 1470) 25 ilə qədər azaltmağa sövq etmişdir. Bununla yanaşı, papalar növbədən kənar yubiley illəri də təyin edə bilərlər.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini iyul ayı ərzində də davam etdirmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**5 iyul** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini radikalizmdən qorunmağın yolları" mövzusunda;

**7 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə nümayəndəliyi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövsuzunda;

**10 iyul** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin dəstəyi və QMİ-nin bölgə qazılığının təşkilatçılığı ilə Təngəaltı kəndi "Seyidlər" məscidi və İkinci Nügədi kəndi "Molla Hud" məscidində dini radikalizm və fanatizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği mövzularında;

**11 iyul** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar rayon Heydər Əliyev Mərkəzi və rayon Gənclər və İdman İdarəsinin (GİI) birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev irsi milli sərvətimizdir" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Yeni Azərbaycan Partiyasının (YAP) Zaqatala rayon təşkilatının birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev siyasəti: Müasir Azərbaycan gəncliyi və milli-mənəvi dəyərlər" mövzusunda;

**12 iyul** – DQİDK, Balakən RİH və rayon Mərkəzi Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən şəhər "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

**13 iyul** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in təşkilatçılığı, Quba Tarix-Diyarşünaslıq Muzeyinin dəstəyi ilə "14 iyul 1969-cu il: müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda; DQİDK və Müdafiə Nazirliyinin 2023-cü il üçün birgə fəaliyyət planına əsasən DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, hərbi intizamın möhkəmləndirilməsində, hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu" mövzusunda;

**14 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı rayonu Varxankənd kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy Gənclər Evinin birgə təşkilatçılığı ilə "Gəncləri yad dini ideologiyalardan və təsirlərdən qorumağın yolları" mövzusunda;

**19 iyul** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Mərkəzi Aran Regional GİI və Ucar rayonu MKS-in birgə təşkilatçılığı ilə "Heydər Əliyev və multikultural dəyərlər" mövzusunda; DQİDK İlə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planına əsasən məhkumların dini maarifləndirilməsi məqsədilə 8 və 13 saylı cəzaçəkmə müəssisələrində "Zərərli vərdişlərə qarşı mübarizədə dinin rolu" mövzusunda; DQİDK-ın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sərhəd Qoşunlarının Şəmkir rayonunda yerləşən hərbi hissəsində "İntihar: mənəvi və ictimai müstəvidə" mövzusunda;

**20 iyul** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional GİI-nin Masallı rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə "Masallı Gənclər Evi" Sosial Xidmət Müəssisəsində "Dini radikalizm və xurafatla mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional GİI-nin Cəlilabad rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə "Dini radikalizm və xurafata gənclər yox deyir" mövzusunda;

**21 iyul** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt şəhərində yerləşən Hərbi Polis bölməsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm, zərərli vərdişlər və intihara aparan yollar" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən hərbçilərin, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə dini radikalizmin yarada biləcəyi fəsadlardan bəhs olunub. Bu sahədə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda xalqımızın zəngin milli-mənəvi, tolerant və multikultural dəyərlərinin gənclər arasında fəal təbliğ edilməsinin əhəmiyyəti diqqətə çatdırılıb. Natiqlər ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını qeyd edib, multikulturalizmin xalqımızın həyat tərzini təşkil etdiyini vurğulayıblar. O da bildirilib ki, Azərbaycanda dini, milli, irqi və məzhəb ayrı-seçkiliyinə yol verilmir, hər kəsin vicdan azadlığı qorunur.

Tədbirlərdə natiqlər Ulu Öndər Heydər Əliyevin Vətənə sədaqət, xalqa fədakarlıqla xidmətlərindən danışıblar. Qeyd ediblər ki, Ümummilli Liderin şah əsəri olan müstəqil, müasir Azərbaycan bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla inkişaf edir. Dövət başçısı Ulu Öndərin siyasətini davam etdirməklə Azərbaycanı dünyada lider ölkələrdən birinə çevirib.

Vurğulanıb ki, müstəqil respublikamız Ümummilli Liderin indiki və gələcək nəsillərə əmanətidir. Ölkə gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu vardır. Bu siyasətin banisi isə xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Qeyd olunub ki, Ulu Öndərin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub.

Həmçinin tədbirlərdə zərərli vərdişlərə qarşı mübarizə üsulu kimi İslam dininin rolundan danışılıb, narkomaniya və digər zərərli vərdişlərin cəmiyyətin fiziki və mənəvi məhvinə yol açması, cəmiyyətin əsas sütunu olan ailə institutuna ağır zərbə vurması və bir çox cinayətlərə səbəb olması kimi faktlara diqqət çəkilib.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**"Biləsuvar rayonu Nərimankənd kəndi "İmam Hüseyn" məscidi" dini icması**

Qeydiyyat tarixi: 21 dekabr 2009-cu il

Qeydiyyat №-si: 100109A3 – 118

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mehdiyev Təzəxan Ziyad oğlu, Məmmədov Bəybala Kamal oğlu , Nuriyev Təvəkkül Niftalı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əbilov Elçin Bəhlul oğlu, Əliyev Fariz Həsənqulu oğlu, Quliyev Elşad Yusif oğlu, Gəncəli Rafət Siyafət oğlu, Eyvazov İlqar Xeyrulla oğlu, Bayramova İradə Əliağa qızı, Abdullayev Mirzə Məmmədəli oğlu, Quliyev Elçin Mürşüd oğlu, Bayramlı Əli Xaləddin oğlu, Quliyeva Mədinə Mürşüd qızı, Muradov Tərlan Abbas oğlu, Mirişli Təbriz Meyxoş oğlu, Alılı Fatimə Meyxoş qızı, Hüseynova Nərgiz Həzrət qızı, Abıyeva Aygün Böyükan qızı, Quliyev Məzahir Sətdar oğlu, Məmmədova Tehranə İmanverdi qızı, Quliyev Rəşad Yusif oğlu, Quliyeva Xanım Hüseyn qızı, Məmmədov Anar Gülməmməd oğlu, Əliyev Əhəd Əlövsət oğlu, Hümmətov Vidadi Vəzir oğlu, Hüseynova Pərvanə Həzrət qızı, Mehbullayev Səbuhi Fizuli oğlu, Mirzəyeva Firuzə Məmmədəli qızı, Quliyev Ədalət Həsənağa oğlu, Əbilov Mehrab Abuzər oğlu, Quliyev Siyafət İbrahim oğlu, Nuriyev Əlizamin Təvəkkül oğlu, Nuriyeva Zöhrə Tofik qızı, Məmmədova Qızqayıd Cəfər qızı, Abıyev Əyyar Böyxan oğlu, Babayeva Gülsara Gülməmməd qızı, Babayeva Fəridə Seyfulla qızı, Bayramov Emin Qağaməli oğlu, Mirişli Orucəli Meyxoş oğlu, Məmmədov Seyfəddin Tahir oğlu, Məmmədov Elməddin İbadulla oğlu, Əliyev Anar Abusət oğlu, Məmiyev Sabit Xanqulu oğlu, Qənbərov Ram Elşad oğlu, Quluzadə Rahib Bahadur oğlu, Əbilov Alim Abuzər oğlu, Şahbazov Təbriz Məhəmməd oğlu, Quliyev Vidadi İsgəndər oğlu, Məmmədov Bəhruz İslam oğlu, Bayramov Vüsal Nayıb oğlu, Bayramova Aysel Əmrah qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 avqust 2023-cü il

**"Masallı rayonu Xıl kəndi "İmam Zaman" məscidi" dini icması**

Qeydiyyat tarixi: 27 aprel 2010-cu il

Qeydiyyat №-si: 100110A2-322

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Məmməd Mürşüd oğlu, Səfərov Dadaş Şahverən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əliyev Abid Qulamirzə oğlu, Əliyeva Bəsirə Məmmədrza qızı, İsrafilov Rais Arif oğlu, Ağayev Rəşid Cümşüd oğlu, Abbasov İltifat Adil oğlu, Əliyeva Gültac Abid qızı, Əliyeva Sevda Məhəmmədrza qızı, Əliyeva Elşad Ağamirzə qızı, Kərimov Elşən Ağadadaş oğlu, Əskərov Ehtibar Abusət oğlu, Məmmədov Tərlan Ağamehti oğlu, Səfərov Əlişah Gülağa oğlu, Ağayev Zəfər Valeh oğlu, Nurəliyev Mozi Sabir oğlu, Nəsirov Şakir Daxıl oğlu, Nəsirov Aqil Əmirağa oğlu, Kəlbiyev Zəkəriyyə Hüseyn oğlu, Hüseynli Vüsal Tarix oğlu, Fərzəliyev Qasım Yunsur oğlu, Hüseynov Rafiz Tarix oğlu, Əkbərov Faiq Əjdər oğlu, Bəşirov Kamal Yəhiyyə oğlu, Babayev Sarvan Əlimərdan oğlu, Abıyev Fikrət Rza oğlu, Məmmədov Şövqi İsi oğlu, Hüseynov Hakim Hərifxan oğlu, Şükürov Musa Əliağa oğlu, Dadaşov Nail Zakir oğlu, Şükürov Salam Əliağa oğlu, Bayramov Vüsal Arif oğlu, Şükürov Əlifağa Əliağa oğlu, Məmmədov Vidadi Abuş oğlu, Əmirov Rəsul Şamil oğlu, Məmmədov Sarıbala Qurban oğlu, Məmmədov Əlvan Mirzağa oğlu, İslamov Əfrail Ağaşirin oğlu, Bəşirov Alxas Almaz oğlu, Bayramov Tarif Məmməd oğlu, Ağayev Elməddin Zadil oğlu, Kərimov Teyyub Səyadulla oğlu, Əhmədov Xanbaba Höccət oğlu, İsmayılova Gülqayıd Səməd qızı, Bəşirov İntiqam Əliş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.Nəsirov Nəsir Daxıl oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.Əliyev Abid Qulamirzə oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 avqust 2023-cü il

CƏMİYYƏT və DİN
№ 08 (382) AVQUST 2023-cü il

# BİRİNCİ ELİZABETƏ AİD "İNCİL"İN ÖRTÜYÜ REKORD MƏBLƏĞƏ SATILIB



Birinci Elizabetə aid olan "İncil" kitabının üz örtüyü hərracda rekord məbləğə satılıb.

Rəngli və gümüş saplarla işlənilmiş əşya hərrac zamanı 120 min funt sterlinqə alınıb.

Qeyd edək ki, əşyanın 10 min funt sterlinqlə 20 min funt sterlinq arasında bir məbləğə satılacağı gözlənilsə də, hərracda iştirak edənlər arasındakı rəqabət qiymətin artmasına səbəb olub.

# MİSİR XURQADASINDA SUYUN ALTINDA MUZEY YARADILIR



Misirin Qırmızı dəniz əyalətinin qubernatoru, general-mayor Əmr Hənəfi suyun altında ilk muzeyin yaradılması planlarını açıqlayıb. Muzey turistlərə Xurqadada "diving" və "snorkeling" üçün üç alternativ yer təklif edəcək. O, Qırmızı dənizin ətraf mühiti və Qoruqlar Nazirliyi ilə əməkdaşlığa hazırlaşır.

Muzey özündə iki məqsədi birləşdirəcək – turistlərin təhlükəsizliyini təmin edərək onları əyləndirmək və Qırmızı dənizin təbii mərcan riflərini qoruyub saxlamaq.

"Qırmızı dəniz əyaləti sahilləri yaxınlığında yerləşən muzey yeni mərcan riflərinin yaradılması, eləcə də tarixin cazibəsini və təbiətin gözəlliyini birləşdirən unudulmaz təəssüratlar üçün nəzərdə tutulub", - deyə kurort əyalətinin başçısı bildirib.

Xüsusilə bu məqsədlə suyun altına yerləşdirilən nəqliyyat vasitələri, turistləri cəlb edən yeni görməli yerlər olacaq. Misir məmurları vəd edirlər ki, muzeydə turistlər gizlədilmiş xəzinə və dəniz canlılarını aşkar edə bilərlər.

# UNESCO VENESİYANIN DÜNYA İRSİ SİYAHISINA SALINMASINI İSTƏYİR

UNESCO İtaliyanın Venesiya şəhərinin təhlükədə olan dünya irsi siyahısına salınmasını tövsiyə edib.

Venesiyanın iqlim dəyişikliyi, ağır turizm fəaliyyəti, həddindən artıq inkişaf və dəniz səviyyəsinin yüksəlməsi səbəbindən risk altında olduğu qeyd edilib. Vurğulanıb ki, məqsəd regionun gələcək üçün daha yaxşı qorunub saxlanmasını təşviq etməkdir.

Tövsiyə qəbul olunmaq üçün sentyabrın sonunda UNESCO-nun Dünya İrs Komitəsinin Ər-Riyadda keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.

Xatırladaq ki, UNESCO iki il əvvəl də Venesiyanın təhlükədə olan dünya irsi siyahısına salınmasını təklif etmişdi. Lakin İtaliya hökuməti tərəfindən görülən bəzi təcili tədbirlər nəticəsində bu təşəbbüsün qarşısı alınmışdı.

Hazırda UNESCO-nun dünya irsi siyahısında 55 ərazi vahidi və ya obyekt var.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Sentyabr - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:43 | 06:07 | 12:40 | 17:19 | 19:28 | 20:32 |
| 2 | 04:44 | 06:08 | 12:40 | 17:18 | 19:26 | 20:30 |
| 3 | 04:45 | 06:09 | 12:40 | 17:17 | 19:24 | 20:28 |
| 4 | 04:46 | 06:10 | 12:40 | 17:15 | 19:23 | 20:26 |
| 5 | 04:48 | 06:11 | 12:39 | 17:14 | 19:21 | 20:24 |
| 6 | 04:49 | 06:12 | 12:39 | 17:13 | 19:20 | 20:23 |
| 7 | 04:50 | 06:13 | 12:38 | 17:11 | 19:18 | 20:21 |
| 8 | 04:51 | 06:14 | 12:38 | 17:10 | 19:16 | 20:19 |
| 9 | 04:52 | 06:15 | 12:38 | 17:09 | 19:15 | 20:17 |
| 10 | 04:53 | 06:16 | 12:37 | 17:08 | 19:13 | 20:15 |
| 11 | 04:55 | 06:17 | 12:37 | 17:06 | 19:11 | 20:14 |
| 12 | 04:56 | 06:18 | 12:37 | 17:05 | 19:10 | 20:12 |
| 13 | 04:57 | 06:19 | 12:36 | 17:04 | 19:08 | 20:10 |
| 14 | 04:58 | 06:20 | 12:36 | 17:02 | 19:06 | 20:08 |
| 15 | 04:59 | 06:21 | 12:36 | 17:01 | 19:04 | 20:06 |
| 16 | 05:00 | 06:22 | 12:35 | 16:59 | 19:03 | 20:04 |
| 17 | 05:01 | 06:23 | 12:35 | 16:58 | 19:01 | 20:03 |
| 18 | 05:02 | 06:24 | 12:35 | 16:57 | 18:59 | 20:01 |
| 19 | 05:03 | 06:25 | 12:34 | 16:55 | 18:58 | 19:59 |
| 19 | 05:05 | 06:26 | 12:34 | 16:54 | 18:56 | 19:57 |
| 21 | 05:06 | 06:26 | 12:34 | 16:52 | 18:54 | 19:56 |
| 22 | 05:07 | 06:27 | 12:33 | 16:51 | 18:53 | 19:54 |
| 23 | 05:08 | 06:28 | 12:33 | 16:50 | 18:51 | 19:52 |
| 24 | 05:09 | 06:29 | 12:32 | 16:48 | 18:49 | 19:50 |
| 25 | 05:10 | 06:30 | 12:32 | 16:47 | 18:48 | 19:48 |
| 26 | 05:11 | 06:31 | 12:32 | 16:45 | 18:46 | 19:47 |
| 27 | 05:12 | 06:32 | 12:31 | 16:44 | 18:44 | 19:45 |
| 28 | 05:13 | 06:33 | 12:31 | 16:43 | 18:43 | 19:43 |
| 29 | 05:14 | 06:34 | 12:31 | 16:41 | 18:41 | 19:42 |
| 30 | 05:15 | 06:35 | 12:30 | 16:40 | 18:39 | 19:40 |

# DÜNYANIN ƏN YAXŞI KİTABXANASI BARSELONADA YERLƏŞİR



Beynəlxalq Kitabxana Assosiasiyaları və Müəssisələri Federasiyası (IFLA) "Viblioteca Garcia Marquez" Barselona kitabxanasını 2023-cü ildə dünyanın ən yaxşı kitabxanası adlandırıb.

Bu il finalda Barselonanın rəqibləri Sloveniya, Avstraliya və Çinin kitabxanaları olub.

Barselona kitabxanası San-Marti rayonunda yerləşir və heyranedici memarlıq və innovativ dizaynı ilə fərqlənir.

"Viblioteca Garcia Marquez" İspaniyada beynəlxalq miqyasda tanınan ilk kitabxanadır. O, bu yaxınlarda - 2022-ci ilin may ayında açılıb, lakin artıq hamını dərhal heyran etməyə nail olub. Açılış ilində kitabxana memarlıq sahəsində Barselona Şəhər mükafatına layiq görülüb və nəticələri 2023-cü il oktyabrın 19-da məlum olacaq memarlıq və dizayn sahəsində FAD mükafatının finalçısıdır.

"Viblioteca Garcia Marquez" kitabxanası 6 mərtəbəlidir, sahəsi 4 min kvadratmetr təşkil edir, orta hesabla gündə onu təxminən min nəfər ziyarət edir.

Burada tez-tez konfranslar, kitab klubları və dünyanın müxtəlif guşələrindən olan yazıçılarla görüşlər keçirilir.

## Yadigar söz

**Piko Ayer**

*Sürət əsrində ləngiməkdən daha çox heç nə insanı ruhlandıra bilməz.*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894